JALƏ AXUNDOVA

# MÜXTƏLİF ÖLKƏLƏRDƏ DİASPOR VƏ İCTİMAİ-MƏDƏNİ DİPLOMATİYA

-18464-

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"Elm və təhsil"
Bakı - 2016

**Jalə Axundova**
**Müxtəlif ölkələrdə diaspor və ictimai-mədəni diplomatiya.**
**Bakı, "Elm və təhsil", 2016, 92 səh.**

$\frac{4602000000}{N098-2016}$ ***qrifli nəşr***

**© «Elm və təhsil», 2016**

***"ƏZİZ NƏNƏM MƏFRUZƏ XANIMIN***

***ƏZİZ XATİRƏSİNƏ..."***

# MÜNDƏRİCAT

**GİRİŞ** ... 6
**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI: İCTİMAİ DİPLOMATİYA VƏ AMERİKAN DƏYƏRLƏRİ** ... 8
"AMERİKALI OLMAQ" ... 8
AMERİKAN "İCTİMAİ DİPLOMATİYASI" ... 9
**AZƏRBAYCAN: DİASPOR VƏ AZƏRBAYCANÇILIQ** ... 13
"AZƏRBAYCANLI OLMAQ" ... 13
SOYDAŞ SİYASƏTİ ... 14
DİASPOR VƏ TƏŞKİLATLAR ... 17
**BİRLƏŞMİŞ KRALLIQ: DİASPOR VƏ İCTİMAİ** DİPLOMATİYA ... 21
TƏHSİL TƏQAÜDÜ VƏ MƏDƏNİ DİPLOMATİYA ... 24
**ÇİN: DİASPOR VƏ "DİL DİPLOMATİYASI"** ... 27
"ÇİNLİ OLMAQ" ... 29
"DİL DİPLOMATİYASI": CONFUCIUS VƏ HANBAN ... 29
"ÇİN KÖRPÜSÜ" ... 31
**ERMƏNİSTAN: DİASPOR VƏ "HAYASTAN"** ... 33
"HAYASTAN" ÜMUMİ ERMƏNİ FONDU ... 34
**SÖZDƏ "ERMƏNİ SOYQIRIMI" DİPLOMATİYASI** ... 37
İSPANİYA: DİL VƏ MƏDƏNİ DİPLOMATİYA ... 37
"İSPAN OLMAQ" ... 37
**"İSPAN DİLİ DİPLOMATİYASI"** ... 39
**İSRAİL: DİASPOR VƏ "ALİYA"** ... 41
"YƏHUDİ OLMAQ" ... 41
"ALİYA"
**İTALİYA: İTALYAN DİASPORU VƏ MİQRASİYA SİYASƏTİ** ... 45
"İTALYAN OLMAQ" ... 45
XARİCDƏ YAŞAYAN İTALYANLAR ... 45
VƏ MİQRASİYA SİYASƏTİ ... 45
İTALYANCA VƏ DANTE ALIGHIERI CƏMİYYƏTİ ... 49
"PATRONATİ" ... 50
**QAZAXISTAN: QAZAX DİASPORU VƏ DÖVLƏT SİYASƏTİ** ... 51
QAZAXISTAN DÖVLƏTİ VƏ DİASPORU ... 51
**FRANSA: İCTİMAİ DİPLOMATİYA VƏ FRANCOPHONIE** ... 57
"FRANSIZ OLMAQ" ... 58
FRANCOPHONIE ... 58
FRANSIZ DİLİ VƏ MƏDƏNİ DİPLOMATİYA ... 62
**GÜRCÜSTAN: GÜRCÜ DİASPORU VƏ SOYDAŞ SİYASƏTİ** ... 64





**GÜRCÜSTAN SOYDAŞI OLMAQ** ... 64
DİASPOR SİYASƏTİ ... 65
**HİNDİSTAN: XARİCDƏ YAŞAYAN HİNDLİLƏR VƏ DİASPOR SİYASƏTİ** ... 70
"HİNDLİ OLMAQ" ... 70
DİASPOR SİYASƏTİ ... 71
**RUSİYA FEDERASİYASI: RUSİYA SOYAŞLARI VƏ İCTİMAİ DİPLOMATİYA** ... 75
RUSİYA SOYDAŞI OLMAQ ... 78
RUSİYA FEDERASİYASI MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ, SOYDAŞLAR VƏ BEYNƏLXALQ YARDIMLAŞMA VƏ ƏMƏKDAŞLIQ FEDERAL AGENTLİYİ ... 79
**YUNANISTAN: XARİCDƏ YAŞAYAN YUNANLAR VƏ OMOGENİA** ... 82
**"BİRLİK" BƏYANNAMƏSİ VƏ YA "YUNAN OLMAQ"** ... 82
XARİCDƏ YAŞAYAN YUNANLAR ... 83
**NƏTİCƏ** ... 87
**İSTİFADƏ OLUNMUŞ İNTERNET RESURSLARIP** ... 89

# GİRİŞ

Bugün "diaspor" anlayışı beynəlxalq münasibətlərin əhəmiyyətli faktoruna çevrilmişdir. Global dünyamızın reallıqları diaspor quruculuğu sahəsində ölkəmizin də qarşısında yeni vəzifələr qoymuşdur. Xalqlar arasında gedən sürətli inteqrasiya prosesləri, diaspor ve lobbi təşkilatlarının beynəlxalq siyasətdə artan rolu, bu sahədə daha geniş miqyaslı fəaliyyətlərin yerinə yetirilməsini tarixi zərurətə çevirmişdir. Digər cəhətdən, dünyadakı vətəndaş və soydaş icmaları istiqamətində siyasətin qurulması öz regionunda və bütün dünyada əhəmiyyətli bir güc olmaq istəyən hər bir ölkənin həm dövlət həm də beynəlxalq səviyyədə siyasi strategiyalarının əsas istiqamətlərindən birini təşkil edir.

Bu baxımdan, "regional yardımlaşma və əməkdaşlıq" anlayışı və fenomeni son dövrlərdə siyasi, iqtisadi və mədəni sahələrdə ekspansionist siyasət güdən ölkələrin (ABŞ, Rusiya, Çin və s) əsas stratejik vasitələrindən birinə çevrilmişdir. Müəyyən ölkələr beynəlxalq arenada xüsusilə maraq və ya təsir dairələrindəki ölkələrlə əlaqələrini bu çərçivədə qurmağa meyl edir. Çünki bu çərçivədə qurulan ikitərəfli əlaqələr tərəflərin mütləq bərabərliyini təmin edən "qarşılıqlı əməkdaşlıq" anlayışı çərçivəsində deyil, bir tərəfin (yardım etmək strategiyasını izləyən tərəfin) nisbi üstünlüyünün başdan bəri qəbul edildiyi bir çərçivədə həyata keçirilir. Bu baxımdan "yardım edən tərəf" əlaqə qurduğu qarşı tərəfdəki ölkənin əsas siyasi-inzibati, iqtisadi, mədəni təşkilat və siyasətinə nüfuz edə bilməkdə, nəticə etibarilə də "yardımlaşma" başlığı altında keçirilən bu kimi fəaliyyətlər əslində bir siyasət "transferi" xüsusiyyəti daşımaqdadır.

"Soydaş" və "yurddaş" anlayışlarının tərifi və məzmununun müxtəlif ölkələrdə fərqli olmasına baxmayaraq, araşdırılan ölkə nümunələrinin hər birində, bu icmalarla bağlı siyasəti hazırlayan və tətbiq edən müxtəlif adlarla daxili və xarici təşkilat və mexanizmlərin olduğu müşahidə edilmişdir.





Eyni zamanda, xaricdə yaşayan soydaşların müxtəlif seqmentləri ilə bağlı bu siyasətlərin əksəriyyəti dil (məs., Fransa), təhsil (məs., ABŞ), siyasi-ideoloji (məs., Ermənistan), mədəni ideoloji (məs., Yunanıstan) və s. kimi müəyyən sahələrdə ölkələr baxımından müxtəlifdir. Hər ölkənin xarici vətəndaş və soydaşlarla əlaqədar tətbiq etdiyi strategiya və siyasətləri də, o ölkənin tarixi, idarəetmə, siyasi, sosial, iqtisadi və mədəni xüsusiyyətlərindən irəli gəlir.

Əlinizdəki kitabda, beynəlxalq diplomatik münasibətlərlə yanaşı, müəyyən xalq vəya icmalarla malik olduğu ortaq tarixi, mədəni, milli dəyərlərlə daha yaxından münasibətlər quraraq dövlətlərarası sahədə daha güclü mövqeyə malik olmağı arzu edən ölkələrin qurduğu diaspor təşkilatları və onların xüsusiyyətləri tədqiq edilmişdir. Bu baxımdan Amerika Birləşmiş Ştatları, Böyük Britanya, Fransa, Rusiya, İsrail, Hindistan, Yunanıstan, Qazaxıstan, Azərbaycan, Gürcüstan və Ermənistan kimi ölkələrin sözügedən sahədəki siyasətinin hüquqi, stratejik, struktur və siyasi xüsusiyyətləri araşdırılmışdır. Bu kitabın məqsədi, bu sahədəki dünya praktikasının tədqiq edilərək müxtəlif ölkə nümunələri ilə tanış olmaq və gələcək elmi-nəzəri və praktik fəaliyyətlərə töhfə vermək dir. Bu baxımdan, mövzunun milli və beynəlxalq səviyyədəki aktuallığından yola çıxaraq, fərqli ölkələrin müvafiq sahədəki fəaliyyətlərinin tədqiq edilməsinin, bu mövzuda gələcəkdə həyata keçiriləcək tədqiqatlar üçün daha geniş - qlobal dünyagörüşün təmin edəcəyi, həmçinin müvafiq sahədəki tədqiqat və ədəbiyyata töhfə verəcəyinə ümid edirik.

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI: İCTİMAİ DİPLOMATİYA VƏ AMERİKAN DƏYƏRLƏRİ

### "AMERİKALI OLMAQ"

Amerika Birləşmiş Ştatları vətəndaş, soydaş mövzularına geniş miqyasda əhəmiyyət verir. Burada "Amerikalı olmaq" demək - ümumiyyətlə ölkəyə vətəndaşlıqla bağlı olmağı ifadə etməkdədir. Burada əslində dil, din, milli-etnik cəhətlərdən bənzərlikdən söhbət getmir, çünki Amerikalı olmaq müəyyən dəyərlərə sahib olmağı və müəyyən bir şəkildə düşünməyi ifadə edir. ABŞ-ın vətəndaşlıq xaricində reallaşdırdığı siyasətin məqsədi digər ölkələrdə Amerika zehniyyəti, həyat tərzi və bənzər dünya görüş ünsürlərini yaymaqla daha çox ölkələr, qruplarla "mədəni yaxınlığı" təmin etməkdir. Bu yaxınlıq, ölkənin xarici siyasətinin müvəffəqiyyətinə xidmət etməkdədir. Əslində, ABŞ-ın soydaş ya da vətəndaş siyasəti praqmatik və siyasi xüsusiyyət daşımaqdadır. Bu məntiq bir Amerika səlahiyyətlisi tərəfindən belə izah edilməkdədir:

*"Ölkələrin, indiki vaxtda mövcud olan*
*Amerika siyasətini dəstəkləmə*
*meylləri, bu ölkələrin cəmiyyətlərinin bizi dəstəkləmədiyi*
*təqdirdə yox ola bilər.*
*Hazırda vəziyyəti davam etdirə bilmək üçün ölkələrin*
*icma və ya cəmiyyətlərinin də bizə*
*güvənməsini təmin etmək məcburiyyətindəyik."*





## AMERİKAN "İCTİMAİ DİPLOMATİYASI"

Amerika Birləşmiş Ştatlarında, ölkənin ictimai idarəetmə sistemində xarici ölkələrdə fəal bir ictimai diplomatiyanı icra edən təşkilatlar həmişə mövcud olmuş (xüsusilə Birinci Dünya Müharibəsindən bəri) və xüsusi əhəmiyyət daşımışdır. İlk olaraq, prezident W. Wilson tərəfindən I. Dünya Müharibəsi dövründə Amerikanın maraqlarını təmin etmək üçün təsis edilən İctimai İnformasiya Komitəsindən sonra, ABŞ Beynəlxalq İnformasiya Agentliyi (USIA) 1953-ci ildə Voice of America, Radio Free Europe, Radio Free Asia və Radio Liberty təşkilatları vasitəsilə bütün dünyada yayımlanmaq üçün yaradılmışdır.

Bu təşkilatların məqsədi:

- ABŞ siyasətini xarici mədəniyyət və icmalar arasında təbliğ etmək və etibarını təmin etmək;
- ABŞ siyasəti haqqında bu siyasətə təsir edən cəmiyyət və təşkilatları məlumatlandırmaq;
- Amerika vətəndaşlarının xarici təşkilatlarla uzun müddətli və səmərəli əlaqələrinin qurulmasını təmin etmək;
- Müvafiq sahədə fəaliyyət göstərən siyasi institutların siyasətinin səmərəliliyinin artırılması üçün ABŞ prezidenti və hökumətini lazım olan məsləhətlərlə təmin etməkdir.

Lakin Soyuq Müharibənin bitməsindən sonra, ideoloji müharibənin gərəksiz olduğu düşüncəsiylə bu təşkilat ləğv edilərək səlahiyyətləri Dövlət Departamentinə verilmişdir. 2001-ci ilin 11 sentyabr hadisəsindən sonra yenidən ABŞ-ın bütün dünyaya təbliğatına ehtiyac duyulduğu üçün beynəlxalq ictimai rəyin Amerikan mənfəətləri çərçivəsində "işıqlandırılması" işləri artırılmışdır.

1961-ci ildə "Qarşılıqlı Təhsil və Mədəni Mübadilə Sənədi" hazırlanmışdır, bu sənəd qısaca "Fulbright-Hays Act" olaraq bilinməkdədir. Bu sənəd, ABŞ mübadilə proqramlarını rəsmi olaraq ictimai diplomatiya vasitəsi olaraq müəyyən etmişdir. Fulbright Proqramının 2010-cu il üçün büdcəsi təqribən 250 milyon dollar olmuşdur. Bu sənəd çərçivəsində prezidentə ictimai diplomatiyanın icra əhəmiyyətli vəzifələri həvalə edilmişdir. Bu məqsədlə Dövlət Departamentində Təhsil və Mədəni İşlər Bürosu fəaliyyət göstərir, xaricdə isə Fulbright Exhange Program, Humphrey Exhange Program, International Visitors Program və digər təqaüd-mübadilə proqramları, həmçinin Amerika Mədəniyyət Mərkəzləri və kitabxanaları bu vəzifəni icra etməkdədir. Amerikanın müvafiq sahədəki siyasətinin əsas xüsusiyyətlərindən biri də, bu sahədəki işlərin "ictimai diplomatiya" məntiqi və fəaliyyətləri çərçivəsində reallaşdırılmasıdır. Digər bir xüsusiyyət isə, həyata keçirilən bu ictimai diplomatiya işlərində əsas iki vasitənin - təhsil və informasiya vasitələrinin istifadə edilməsidir.

Statistika məlumatlarına görə, 6,32 milyon Amerikalı ölkə xaricində və 160-dan çox ölkədə yaşayır. Bu vətəndaşların koordinasiyasını təmin etmək üzrə Xaricdə Yaşayan Amerikalılar Assosiasiyası (AAARO) fəaliyyət göstərir. Bu təşkilat 1973-ci ildə yaradılıb və ABŞ hökumətinin xaricdəki amerikalılara bağlı siyasəti ilə məşğul olmaqdadır. Əsas məqsədi, xaricdə yaşayan amerikalıların ABŞ-da yaşayan amerikalılarla eyni haqq və imkanlardan istifadə etməsini təmin etməkdir.

Bu çərçivədə fəaliyyət göstərən bir digər təşkilat, Beynəlxalq İnformasiya Agentliyi (USIA), 142 ölkədə 190 nümayəndəliklə fəaliyyət göstərir. Bu nümayəndələr (3 nümayəndə - İctimai İşlər, İnformasiya və Mədəni İşlər üzrə nümayəndə) xarici diplomatik nümayəndəlik, Amerika Mərkəzi və Kitabxanalarında fəaliyyət göstərir. Təşkilatın büdcəsinə baxıldığında məsələn, 1999-ci ildə agentliyin fəaliyyətini təmin





etmək məqsədi ilə mərkəzi büdcədən 1,1 milyard dollar ayrılmışdır. 2002-ci ildə təşkilatın büdcəsinə 100 milyon dollar əlavə olunmuşdur. Təşkilatın o illərdə personalının sayı təqribən 8 min olmuşdur. Burada büdcədən əsas ödənişlər üçün, Radyoya ("Voice of America") 20%, təhsil və mədəniyyət sahəsində mübadilə proqramlarına 17%, film, jurnal, broşura 8%, mərkəzi heyətə 12%, internet 18%, xarici nümayəndəliklərinə də 25% ayrılmışdır.

1998-ci ildə yeni bir qərarla, ABŞ Beynəlxalq İnformasiya Agentliyi (USIA) və Dövlət Departamentindəki Təhsil və Mədəni İşlər Bürosu birləşdirilərək tək bir vahid - İnformasiya və Beynəlxalq Mübadilə Proqramları üzrə Dövlət Departamentinin Bürosu yaradılmışdır. Bu yenidən strukturlaşma prosesində maraqlı bir məqam da, əvvəlcədən Beynəlxalq İnformasiya Agentliyinin yerinə yetirdiyi müvafiq sahədəki tədqiqat işlərinin Kəşfiyyat və Tədqiqat Dövlət Departamentinin Bürosuna təhvil verilməsi olmuşdur.

Hazırda müvafiq sahədə, İctimai diplomatiya və İctimai İşlər üzrə Dövlət Katibliyi fəaliyyət göstərir. Eyni zamanda, ölkədə 14 dövlət əhəmiyyətli müəssisə və 48-dən çox müstəqil təşkilat ictimai diplomatiya sahəsində fəaliyyət göstərir. Bu təşkilat müvafiq sahədəki bütün fəaliyyətləri koordinasiya etməkdə olub, planlaşdırma, maliyyələşdirmə və ictimai diplomatiya proqramlarının həyata keçirilməsi ilə məşğul olur.[1] 2009-ci ildə, ictimai diplomatiya sahəsində ABŞ büdcəsindən 932 milyon dollar vəsait istifadə edilmişdir. Bu məqsədlə 2010-ci ildə büdcədən 1,133 milyon dollar, 2011-ci ildə 1,287 milyon tələb edilmişdir.

---

[1] Təşkilata 3 büro və iki ofis hesabat verir: Təhsil və Mədəni İşlər Bürosu, Beynəlxalq İnformasiya Proqramı Bürosu, İctimai İşlər Bürosu, Siyasət, Planlaşdırma və Resurslar Ofisi, Özəl Sektor Xidmətləri Ofisi.

USAID təşkilatı da Amerika ictimai diplomatiyasının əhəmiyyətli vasitələrindən biri olub, ABŞ və digər ölkə və cəmiyyətlər arasında sıx əlaqələrin qurulmasını təmin etməkdədir. USAID xarici ölkələrdəki yardım fəaliyyətlərini "Amerika Xalqından" şüarıyla həyata keçirir. 2014-ci ildə USAID proqramlarına federal büdcədən 1,5 milyard dollar ayrılmışdır. Bununla yanaşı, digər ictimai diplomatiya təşkilatları olaraq, ölkənin hərbi fəaliyyətləri reallaşdırdığı ölkələrdə "lazım olan" ictimai rəyin yaradılması üçün çalışan Müdafiə Kommunikasiyası Şöbəsi və digər stratejik kommunikasiya və tədqiqat təşkilatları mövcuddur. Eyni zamanda, ABŞ prezidenti 2009-ci ildə Konqresə, ölkənin İctimai diplomatiya və Stratejik Əlaqələr sahəsində əsas sənədini təqdim etmişdir. Digər tərəfdən, 2012-ci ildən etibarən, Dövlət katibi hər 4 ildə Senatın Xarici Əlaqələr və Nümayəndələr komitələrində "Hesabatlar" təqdim edilməsi mövzusunda səlahiyyətləndirilmişdir. Amerikanın, sözü gedən sahədə müvəffəqiyyətini artıran vasitələrdən biri də Amerika Evləri/Amerika mərkəzləridir. Bundan başqa, ABŞ xarici siyasətini icra edən ABŞ Dövlət Departamentinin nəzdində, "Amerika dəyərlərinin bütün dünyaya yayılması və qəbul edilməsinin təmin edilməsi üzrə" İctimai İşlər Bürosu fəaliyyət göstərir.

Göründüyü kimi, ABŞ vətəndaşlıq-yurddaşlıq, həmçinin ictimai diplomatiya mövzusunu ölkənin xarici siyasətinin əsas sahələrindən biri olaraq görməkdə və bu sahədəki fəaliyyətlərini xarici siyasət və milli təhlükəsizliyi ilə də əlaqələndirməkdədir.





## AZƏRBAYCAN: DİASPOR VƏ AZƏRBAYCANÇILIQ

Dünya azərbaycanlılarının təxmini sayı 50 milyondur. Dünyanın 5 qitəsində yaşayan soydaşların siyasi, iqtisadi və ictimai-mədəni fəaliyyətləri yaşadıqları ölkələr, oradakı mühit, mənəvi dəyərlər kimi müxtəlifdir. Azərbaycanlılar Amerika qitəsinin Şimal, Mərkəzi və Cənubi hissəsində daha çox məskunlaşıblar. Onların sayı ABŞ-da 1 milyon, Argentinada 12 min, Braziliyada 75 min, Kanadada 170 min, Meksikada isə 27 minə yaxındır. Amerika qitəsi ölkələrində, xüsusilə Honduras, Qvatemala, Peru və digər ölkələrdə də soydaşlar yaşamaqdadırlar. Amerika qitəsində yaşayan azərbaycanlıların əksəriyyəti Cənubi Azərbaycandan köçən soydaşlardır. 1970-ci ildən etibarən Türkiyədən, 1991-ci ildən etibarən isə Azərbaycandan bir qisim soydaşların bu qitəyə köçməsi, Azərbaycan diasporunun tərkibinə keyfiyyət və kəmiyyət baxımından müsbət istiqamətdə təsir etmişdir. Rusiyada isə 3 milyondan çox azərbaycanlı əhali yaşayır.

## "AZƏRBAYCANLI OLMAQ"

"Xaricdə Yaşayan Azərbaycanlılarla Bağlı Dövlət Siyasəti Haqqında" Qanun, xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsəd və prinsiplərini və bu siyasətin həyata keçirilməsi ilə əlaqədar dövlət orqanlarının fəaliyyətinin əsaslarını müəyyən edir.[2] Qanunda

[2] Azərbaycan Respublikasının diaspor mövzularında qanunvericiliyi:
1995-11-12 | Azərbaycan Respublikası Konstitusiyası
1991-12-16 | 31 dekabr "Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı

"xaricdə yaşayan azərbaycanlılar" dedikdə, Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan və özünü azərbaycanlı hesab edən aşağıdakı şəxslər başa düşülür:

Azərbaycan Respublikasının vətəndaşları və onların övladları;

Əvvəllər Azərbaycan SSR-nin və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş şəxslər və onların övladları;

"Xaricdə yaşayan azərbaycanlılar" anlayışı həmçinin bu Qanunun yuxarıda göstərilmiş maddələrindəki kateqoriyalara aid olmayan, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü azərbaycanlı hesab edən şəxslərə və onların övladlarına da şamil olunur.

## SOYDAŞ SİYASƏTİ

Azərbaycan Respublikası xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasətini həyata keçirərkən beynəlxalq hüququn hamılıqla qəbul edilmiş prinsiplərinə, o

---

2002-12-27 | "Xaricdə Yaşayan Azərbaycanlılarla Əlaqədar Dövlət Siyasəti haqqında" AR Qanunu
2009-05-14 | "AR Diaspor ilə İş Üzrə Dövlət Komitəsi haqqında Nizamnaməsinin və Komitə Quruluşunun təsdiq edilməsi haqqında" AR Prezidentinin fərmanı
2008-11-19 | "AR Diaspor ilə İş Üzrə Dövlət Komitəsinin yaradılması haqqında" AR Prezidentinin sərəncamı
2006-02-08 | "Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında" AR Prezidentinin fərmanı
2003-02-21 | "Xaricdə Yaşayan Azərbaycanlılarla Əlaqədar Dövlət Siyasəti haqqında AR Qanununun tətbiq edilməsi haqqında" AR Prezidentinin fərmanı
2002-07-05 | "Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında" AR Prezidentinin fərmanı və digər hüquqi aktlardan ibarətdir.





cümlədən insan hüquq və azadlıqlarına hörmət və digər dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərinə əsaslanır. Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti Azərbaycan Respublikasının daxili və xarici siyasətinin ayrılmaz tərkib hissəsidir.

Milli qanunvericiliyində qeyd olunduğu kimi, "Azərbaycan Respublikası onun vətəndaşı olan və onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan azərbaycanlıların hüquqi müdafiəsinə təminat verir və onlara hamilik edir." Azərbaycan Respublikasının vətəndaşı olan və onun ərazisindən kənarda müvəqqəti və ya daimi yaşayan azərbaycanlılar Azərbaycan Respublikasının ərazisində yaşayan Azərbaycan Respublikası vətəndaşları ilə bərabər hüquqlara malikdir və bərabər vəzifələr daşıyırlar. Qanuna görə Azərbaycan Respublikası:

Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən kommersiya təşkilatları ilə xaricdə yaşayan azərbaycanlıların kommersiya təşkilatları arasında əməkdaşlığı təşviq edir;

xaricdə yaşayan azərbaycanlıların iştirak etdiyi birgə müəssisələrin yaradılmasına kömək göstərir;

xaricdə yaşayan azərbaycanlıların Azərbaycan Respublikasının iqtisadiyyatına investisiya qoymaları və Azərbaycan Respublikasının ərazisində sərbəst surətdə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları üçün əlverişli şərait yaradır.

Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanları xaricdə yaşayan aztəminatlı azərbaycanlılara sosial yardım göstərə bilərlər.

Xaricdə yaşayan azərbaycanlılarla bağlı Azərbaycan Respublikasının dövlət siyasətinin məqsədləri üçün, xaricdə yaşayan azərbaycanlılara maliyyə yardımı edən fiziki və hüquqi şəxslərə Azərbaycan

Respublikasının qanunvericiliyinə uyğun olaraq vergi, gömrük güzəştləri və digər güzəştlər verilə bilər.

Təbii fəlakətlər, ekoloji və digər qəzalar baş vermiş yerlərdə yaşayan azərbaycanlılara Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada humanitar yardım göstərilə bilər.

Bununla yanaşı Qanunda dövlətin xaricdə yaşayan azərbaycanlılarla bağlı mədəniyyət, dil və təhsil sahələrində siyasətin həyata keçirilməsi də nəzərdə tutulmuşdur:

Azərbaycan Respublikasının dövlət orqanları xaricdə yaşayan azərbaycanlılara öz mədəni irsinin və dilinin qorunub saxlanmasında və inkişaf etdirilməsində, öz ana dilində təhsil almaq imkanının həyata keçirilməsində yardım göstərir və bu məqsədlə zəruri tədbirlər görür.

Azərbaycan Respublikasının dövlət orqanları digər dövlətlərdə yaşayan azərbaycanlıların milli-mədəni muxtariyyətləri ilə hərtərəfli əməkdaşlıq həyata keçirir.

Xaricdə yaşayan azərbaycanlılara öz mədəni, elmi və informasiya tələbatını ödəmək üçün Azərbaycan Respublikasının digər dövlətlərdə olan elm və mədəniyyət mərkəzlərindən istifadə etmək imkanı verilir.

Eyni zamanda, dövlət xaricdə yaşayan azərbaycanlılara öz mədəni irsinin qorunub saxlanmasında və inkişaf etdirilməsində yardım məqsədi ilə aşağıdakı tədbirləri həyata keçirir:

xaricdə yaşayan azərbaycanlıların mədəniyyət mərkəzlərinə, mədəni maarif təşkilatlarına, kitabxanalarına, arxivlərinə, muzeylərinə, teatrlarına,





musiqi ansambllarına və digər yaradıcı kollektivlərinə yardım göstərir;

xarici ölkələrdə Azərbaycan dilində fəaliyyət göstərən məktəblərin tədris metodik və maddi-texniki təminatına və inkişafına, eləcə də həmin məktəblər üçün kadrların hazırlanmasına yardım göstərir;

xaricdə yaşayan azərbaycanlıların mədəni irsinin öyrənilməsinə kömək göstərir;

xaricdə yaşayan azərbaycanlılara öz ana dilini qoruyub saxlamaqda, ana dilinin öyrənilməsinə, təhsil almaq və informasiya əldə etmək üçün bu dildən istifadəyə şərait yaradılmasında kömək göstərir;

xaricdə yaşayan azərbaycanlıların Azərbaycan tarixini və Azərbaycan mədəni irsini öyrənməsinə şərait yaradılmasında onlara kömək göstərir;

xaricdə yaşayan azərbaycanlılara Azərbaycan Respublikasında təhsil almaq, elmi və digər yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq üçün güzəştli şərtlərlə yardım göstərir.

## DİASPOR VƏ TƏŞKİLATLAR

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü, Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu gün, fərqli ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələrin qurulması, onlar arasında birlik və həmrəyliyin möhkəmləndirilməsində mühüm rol oynayır. 31 dekabr - Dünya azərbaycanlılarının Həmrəylik Günü, dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd edilir. Həmrəylik gününü hətta milliyyətcə Azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan mənşəli diaspor nümayəndələri də qeyd edirlər.

Bu sahədə əsas təşkilatlardan biri də Dünya Azərbaycanlıları Konqresidir. 1997-ci ildə Los Angelesdə təsis edilən DAK yarandığı gündən bu günədək 10-dan çox qurultay

18464
PREZİDENT KİTABXANASI

həyata keçirmişdir. Təşkilatın bir çox ölkədə nümayəndəlikləri mövcuddur. DAK-ın 3 nəfərdən ibarət Nəzarət-Təftiş Komissiyası DAK üzvlərinin təşkilatın müəyyən etdiyi qaydalara uyğun fəaliyyətini həyata keçirilməsinə nəzarət edir. DAK qurulduğu gündən bəri qarşısında 3 əsas məqsəd müəyyən edib və bu istiqamətdə dünyaya yayılmış soydaşların təşkilatlanmasını təmin etməkdədir:

Azərbaycanın cənubunda (İranda) yaşayan soydaşların hüquqlarının qorunması;

Qarabağ probleminin həlli;

Azərbaycanda demokratiyanın təmin edilməsi.

DAK[3] fəaliyyətlərini müstəqil olaraq həyata keçirir. Heç bir dövlət, hökumət və təşkilat qarşısında mükəlləfiyəti yoxdur. Ukrayna, Rusiya və Cənubi Azərbaycanda nümayəndəlikləri mövcuddur. DAK İdarə Heyətinə Azərbaycan, Türkiyə, Rusiya, Ukrayna, İsveç və Almaniyadan üzvlər daxildir.

2001-ci ilin 23 may tarixində Prezident Heydər Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan soydaşların və vətəndaşların Azərbaycan Respublikası ilə əlaqələrinin daha da gücləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin edilməsi, habelə Azərbaycanlıların icmaları və təşkilatlarının fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə əlaqədar problemlərin ortaq müzakirəsinin vacibliyini nəzərə alaraq, Dünya Azərbaycanlılarının I Konqresinin həyata keçirilməsi haqqında fərman imzalamışdır.

2001-ci ilin 9-10 noyabr tarixlərində Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı, böyük bir mərhələnin başlanğıcı olaraq Azərbaycan tarixinə həkk olnumuşdur. I

[3] DAK-ın təşkilat quruluşu belədir: İdarə Heyəti, Daimi Şura, Nəzarət-Təftiş Komissiyası, Gənclər Təşkilatı, Məşvərət Şurası, Katiblik, Mətbuat-Yayım xidməti, Tədqiqatlar Mərkəzi, İdman Şöbəsi, Ağsaqqallar Şurası, Qadınlar Şurası, Nümayəndəliklər





Qurultayda 36 ölkədən 200-dən çox fərqli təşkilatı təmsil edən 406 nümayəndə və 63 qonaq iştirak etmişdir. Bununla yanaşı, 130-dan çox dövlət və ictimai təşkilatlardan, elm, təhsil, mədəniyyət və digər yaradıcı təşkilatlardan, 25 siyasi partiyadan 702 nümayəndə və 844 qonaq iştirak etmişdir. Qurultay, yeni "Azərbaycançılıq" milli ideologiyası əsasında reallaşdırılmış olub, bu dəyər ətrafında Azərbaycanlı soydaşların birlik və həmrəyliyini təmin etmişdir.

2002-ci ilin may ayında, Azərbaycan Respublikasının Prezidenti H. Əliyev, "Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin Yaradılması Haqqında" fərman imzalamışdır. Fərman Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil şəkildə əlaqələndirilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı baxımından müstəsna əhəmiyyət kəsb edən bir tarixi sənəd olmuşdur. Xarici ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması bu sahədə olan problemlərin aradan qaldırılması istiqamətində əhəmiyyətli addımlar atmağa və Azərbaycan diasporunun fəaliyyətini milli maraqların həyata keçirilməsinə yönəltməyə imkan vermişdir.

Keçən dövrün ən əhəmiyyətli hadisələrindən biri, Azərbaycan Respublikası Prezidentinin 2008-ci ilin 19 noyabr tarixində imzaladığı fərman ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi əsasında Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması olmuşdur. Diasporla İş üzrə Dövlət Komitəsinin[4] yaradılması digər xalqların diaspor

[4] Diaspor Komitəsinin təşkilat quruluşu belədir: Prezident, Birinci Köməkçi, Ümumi İşlər üzrə Köməkçi, Hüquq İşləri və İnsan Resursları şöbəsi, Təbliğat, İnformasiya və Analitik Təhlil şöbəsi, Maliyyə şöbəsi, I Region şöbəsi (Rusiya, Ukrayna, Belarus, Hindistan və Çin ), II Region şöbəsi (Qərbi Avropa), III Region şöbəsi (Türkiyə, Mərkəzi Asiya, Gürcüstan, Yaxın Şərq,

təşkilatları və müxtəlif ölkələrin birbaşa bu sahədə məsul olan dövlət orqanları ilə əməkdaşlığın qurulması imkanlarını genişləndirmişdir. Diaspor Komitəsinə 2010-ci ildə büdcədən təqribən 2,2 milyon dollar ayrılmışdır. Bu qurum Azərbaycan Respublikasının xaricdə yaşayan vətəndaş və soydaşlarının vəziyyəti haqqında məlumat toplanmasını, təhlilini və qiymətləndirilməsini və bu məqsədlə xüsusi məlumat bankının yaradılmasını təmin edir.

Azərbaycan diaspor təşkilatları zaman-zaman diasporun problemlərinin müzakirə edildiyi qurultayları[5] da təşkil edir.

Yeni Zelandiya və Avstraliya), IV Region şöbəsi (Şərqi Avropa), Gənclərlə İş şöbəsi.

[5] Bu cür qurultaylar arasında - Dünya Azərbaycanlılarının I Qurultayı (9-10 noyabr 2001), Dünya Azərbaycanlılarının II Qurultayı (16 mart 2006), Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı (17-19 noyabr 2007), Avropa Azərbaycanlılarının II Qurultayı (17 aprel 2004), Avropa Azərbaycanlılarının III Qurultayı (14 aprel 2009), Dünya Azərbaycanlılarının III Qurultayı (5-6 iyul 2011), Azərbaycan-İsrail Beynəlxalq Assosiasiyasının Təsis Qurultayı (May 2010), Gürcüstan Azərbaycanlı gənclərinin I Qurultayı (may 2010), Kanada Azərbaycan Təşkilatlar Assambleyasının I Qurultayı (30 may 2009), Benilüks Azərbaycanlıları Konqresinin II Qurultayı (7 mart 2007), İsveç Azərbaycanlıları Konqresinin Təsis Qurultayı və s. misal göstərilə bilər.





## BİRLƏŞMİŞ KRALLIQ: DİASPOR VƏ İCTİMAİ DİPLOMATİYA

Birləşmiş Krallıq diasporu, Birləşmiş Krallıqlılardan və daha əvvəl Birləşmiş Krallıkdan köçənlərin nəsillərindən ibarətdir. Köç edənlər ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya, Cənubi Afrika və İspaniyada məskunlaşıblar. 2006-cı ilin statistikasına görə, Birləşmiş Krallıkda dünyaya göz açmış 5,5 milyon şəxs Krallığın xaricində yaşayır. Xarici İşlər və Birlik Ölkələri İdarəsinə görə (The Foreign and Commonwealth Office), 13,1 milyon Birləşmiş Krallıq mənşəli şəxs xaricdə yaşayır (2005). Ən böyük Birləşmiş Krallıklı diaspor Honkonqda yaşayır (3.750.000).

Ümumiyyətlə, Birləşmiş Krallığın xaricdə yaşayan diasporla məşğul olan təşkilatları tarix boyunca ad və struktur dəyişikliklərinə məruz qalmışdır. Çünki bu sahədə, əvvəlcə müstəmləkə regionlarla işləyən Dövlət Müstəmləkə Katibliyi, Dövlət Dominyon Katibliyi, daha sonra isə Birlik Ölkələri üzrə Dövlət Katibliyi fəaliyyət göstərmişdir. Hal-hazırda isə Xarici İşlər və Birlik Ölkələri İdarəsi və Xarici İşlər və Birlik Ölkələri İşləri üzrə Dövlət Katibliyi fəaliyyət göstərir. Bu təşkilatlarda diqqət çəkən maraqlı bir məqam da odur ki, bu diaspor təşkilatlarına, milli təhlükəsizlik və kəşfiyyat vəzifələrinin verilməsi ilə əlaqədar bu təşkilatların Krallık və Hökumətin ən əhəmiyyətli milli təhlükəsizlik təşkilatlarındandır. Xarici İşlər və Birlik Ölkələri İdarəsi Birləşmiş Krallıq Hökumətinin nəzdində fəaliyyət göstərir. Bu idarə bütün dünyada BK maraqlarının qorunması və inkişafından məsuldur. 1968-ci ildə yaradılan İdarənin rəhbəri, Xarici İşlər və Birlik Ölkələri İşləri üzrə Dövlət Katibidir. Bu mövqe, Hökumətdəki 4 ən əhəmiyyətli mövqedən biridir. Təşkilatın əsas iki hədəfi, xaricdəki Birləşmiş Krallıq diasporu və Birləşmiş Krallığa gələn əcnəbilərdir. Bu təşkilatın sələfi 1782-ci ildə Krallığın xaricində tabeliyində olan ərazilərlə

bağlı məlumatı təmin edən Xarici İdarədir. Təşkilatın illik büdcəsi (2011-2012) 1,5 milyard sterlinq, sərmayəsi isə 100 milyon sterlinqdir.

İdarə, xaricdə[6] Birləşmiş Krallığın maraqlarını, vətəndaşlarını və iş-biznes aləmini qorumaq üçün fəaliyyət göstərir. Təşkilatın rəsmi saytında bununla əlaqədar belə deyilir:

*"Bizim dünyada baş verənləri anlamaqda və təsir etməkdə dünya standartlı diplomatlarımız, xaricə səyahət edən, yaşayan və işləyən vətəndaşlarımıza dəstək təmin edir, Birləşmiş Krallığa köç prosesini idarə edir, Birləşmiş Krallıq ticarətini və digər maraqlarını irəli sürür və BK-ya sərmayələri təşviq edir."*

Xarici İşlər və Birlik Ölkələri İdarəsinin[7] maliyyə və siyasi işlərinin davamlı aparılması işini daimi katib müavini həyata keçirir. O bu vəzifəni, 8 idarə heyəti üzvüylə birlikdə həyata keçirir. Burada hər üzv öz iş sahəsindən məsuldur. Təşkilatın iyerarxik quruluşu idarələrdən və idarə rəhbərindən ibarətdir. Təşkilat, 14.000 əməkdaş və 270 diplomatik ofislə fəaliyyət göstərib, 10.000-i fəaliyyət göstərdiyi 170 ölkədə

---

[6] Xaricdəki diasporla Birləşmiş Krallıq hökuməti ilə əlaqəli şəkildə çalışan təşkilatlar olaraq – Avropada - Şotlandiya Evi (Brüssel), Uels Evi (Brüssel), Şimali İrlandiya İcra Ofisi (Brüssel), ABŞ-da isə - Şotlandiya İşləri Ofisi, Uels Məclisi Hökuməti Xarici İşləri Şöbəsi, Şimali İrlandiya Bürosu fəaliyyət göstərir.

[7] Təşkilat Quruluşu: Siyasət İdarəsi (Çox tərəfli Siyasət, Şərqi Avropa və Mərkəzi Asiya, Orta Şərq və Şimali Afrika, Cənubi Asiya və Əfqanıstan, Afrika), Baş Əməliyyat İdarəsi (İnsan Resursları, Maliyyə, Əmlak İşləri, Təhlükəsizlik, Məlumat, Protokol), Müdafiə və Kəşfiyyat İdarəsi (Milli Təhlükəsizlik, Siber İşlər, Müdafiə və Beynəlxalq Təhlükəsizlik, Digər Regionlar, Amerikalar), İqtisadiyyat və Konsulluq İdarəsi (Avropa, Maddi Təminat, Sakit Okean, Konsulluq Xidmətləri, Miqrasiya), BK Ticarət və İnvestisiya Dairəsi (Sənaye, Marketinq, İT və Maliyyə, İş-Biznes, Müdafiə və Təhlükəsizlik Təşkilatı, Olimpik Miras)





yerləşir. Xarici İşlər və Birlik Ölkələri İdarəsinin İcra Heyəti[8] 11 üzvdən ibarət olub, Daimi katib müavini Məclisə rəhbərlik etməkdədir.

Baş Nazir, ya da Xarici İşlər və Birlik Ölkələri İşləri üzrə Dövlət Katibi, müəyyən mövzularda Xüsusi Nümayəndələr təyin etməkdədir, məs.: Post-Holocaust İşləri üzrə xüsusi nümayəndə, İqlim Dəyişikliyi üzrə xüsusi nümayəndə, Sudan və Cənubi Sudan üzrə xüsusi nümayəndə, Əfqanıstan və Pakistan üzrə xüsusi nümayəndə, Cənubi Qafqaz üzrə xüsusi nümayəndə və s. Bununla yanaşı, Xarici İşlər və Birlik Ölkələri İdarəsi BK-nın BMT, ATƏT, NATO, AB kimi beynəlxalq və regional təşkilatlarda iştirakından da məsuldur.

Digər tərəfdən Locarno Qrupu, idarənin xarici siyasətini dəstəkləməyi öz qarşısına məqsəd qoymuşdur. Qrup üzvləri müntəzəm konfransları, məlumat, təcrübə və fəaliyyətləri vasitəsilə idarənin fəaliyyətinə töhfə verir. Qrup üzvləri Xarici İşlər və Birlik Ölkələri İdarəsinin keçmiş səlahiyyətli əməkdaşlarından ibarətdir (11). İştirakçılar könüllü əsaslarda fəaliyyət göstərirlər. Xarici İşlər və Birlik Ölkələri İdarəsi Baş Nazir və Xarici İşlər və Birlik Ölkələri İşləri üzrə Dövlət Katibi tərəfindən müəyyənləşdirilən xarici siyasət prioritetləri çərçivəsində fəaliyyət göstərir, bunlar aşağıdakılərdir:

Birləşmiş Krallığın təhlükəsizliyini qorumaq;
Birləşmiş Krallığın rifahını qorumaq;
Birləşmiş Krallıqlıların maraqlarını xaricdə qorumaq.

Xarici İşlər və Birlik Ölkələri İdarəsinin prioriteti - effektiv bir xarici siyasətin aparılması izləmək və beynəlxalq qaydalar çərçivəsində maraqlarının qorunmasıdır. Təşkilat, xarici

---

[8] İcra heyəti 3 alt komitədən ibarətdir: Maliyyə Nəzarət və Risk, İnsan Resursları, Əməliyyatlar Komitəsi.

siyasət çərçivəsində xarici ölkələrdə demokratiya, insan hüquqlarının yayılması, terrorizm, Orta Şərq, "Ərəb Baharı" və s. siyasi mövzularla bağlı da işləyir və bu istiqamətlərə vəsait ayırır. Bu təşkilat eyni zamanda ölkəyə investisiyanın təşviqi, konsulluq xidmətləri, tərksilah hərəkatı, iqlim dəyişikliyi və s. kimi fərqli mövzularda fəaliyyətlərini davam etdirməkdədir.

## TƏHSİL TƏQAÜDÜ VƏ MƏDƏNİ DİPLOMATİYA

British Council, BBC World Service və Wilton Park təşkilatları Xarici İşlər və Birlik Ölkələri İdarəsinin əsas ictimai partnyorlarıdır. Bundan başqa, bu idarə QHT, araşdırma və beyin mərkəzləri, gənclər, iş adamları və ayrı-ayrı vətəndaşlarla da əməkdaşlıq və ictimai diplomatiyanı həyata keçirir. British Council təşkilatının illik büdcəsi təqribən 1 milyard dollardır. Təşkilat eyni zamanda, gələcəyin liderlərini Chevening təqaüd proqramıyla dəstəkləyərək, məzunlarla əlaqəsini də qorumaqdadır. 1983-ci ildən bəri cəmi 40.000 proqram məzunu mövcuddur. Chevening təqaüd proqramı çərçivəsində 116 ölkədən (ABŞ və AB ölkələri istisna olmaqla) gələn istedadlı gənclər BK universitetlərində magistratura təhsili almaq imkanını qazanmaqdadırlar. Program, hər hansı universitet və ya fakultədə tam və ya yarı təqaüdlü təhsil və ya kurs alma imkanı təqdim etməkdədir. Sayı 40 mini keçən programın məzunları, bütün dünyada fəal bir şəbəkə meydana gətirir. 2012-ci ilin 1 aprel tarixindən etibarən, Chevening təqaüdlərini artıq British Council deyil, Birlik Ölkələri Universitetlər Assosiasiyası həyata keçirir.

Digər tərəfdən, Xarici İşlər və Birlik Ölkələri İdarəsi Birləşmiş Krallıqlılara və iş adamlarına xaricdə nümayəndəlikləri və digər təşkilatları vasitəsilə bəzi xidmətləri də təmin etməkdədir. Miqrasiya məsələləri ilə də məşğul olan təşkilat, BK





Sərhəd Agentliyi ilə də əməkdaşlıq edərək, planlı miqrasiyaya dəstək verməkdədir.[9] Xarici İşlər və Birlik Ölkələri İdarəsi 2012-ci ildə keçmiş müstəmləkə ölkələri haqqında arxivləşmə siyasətinin tətbiqinə başlamışdır. "Miqrasiya arxivlərini" Milli Arxiv İdarəsinə təhvil vermək üçün Parlament və Hökumət, həmçinin Xarici İşlər və Birlik Ölkələri İşləri üzrə Dövlət Katibi ilə əməkdaşlıq edir, bu çərçivədə 2012-ci ilin sentyabr ayından etibarən Baham, Seylon, Yamayka, Malta, Kipr, Keniya və s. regionlardan məlumat və sənədlər göndərilməkdədir. British Council, BBC World Service və Wilton Park kimi təşkilatlar fəaliyyətlərində müstəqil olsalar da, maliyyə dəstəyini Xarici İşlər və Birlik Ölkələri İdarəsindən alırlar. 2012-ci ilin 12 may tarixində təşkilatın 2012-2015-ci illəri əhatə edən Fəaliyyət Planı hazırlanmışdır. Təşkilatın 2011-2012 və sonrakı illər üçün nəzərdə tutulmuş xərcləri illik ortalama 1, 6 milyard sterlinqdir. Bundan başqa, 2010-2011-ci illər üzrə dövlət büdcəsinə baxdığımızda, Xarici İşlər və Birlik Ölkələri İdarəsi üçün büdcədən 1,4 milyard sterlinq ayrılmıştır.

Ölkənin bu sahədəki siyasətini icra edən Xarici İşlər və Birlik Ölkələri İşləri üzrə Dövlət Katibi Krallıq Hökumətinin ən əhəmiyyətli qurumlarından biri olub, Xarici İşlər və Birlik Ölkələri İdarəsini idarə etməkdədir. Birləşmiş Krallıq və Birlik Ölkələrinin maraqlarının xaricdə qorunması ilə bağlı məsələlərdə beynəlxalq əlaqələri icra etməklə məsul olan təşkilat öz fəaliyyəti çərçivəsində Gizli Kəşfiyyat xidmətinə də töhfə verir və birbaşa təşkilat katibi qarşısında məsuliyyət daşıyır. Xarici İşlər və Birlik Ölkələri İşləri üzrə Dövlət Katibi, eyni zamanda Kabinetin üzvüdür və Xarici İşlər və Birlik Ölkələri İdarəsindən məsuldur. Katib, Birləşmiş Krallığın xarici siyasətinin icrası, xarici ölkələr

---

[9] Təşkilatın xidmətləri arasında - Konsulluq Xidmətləri, Hüquq Xidmətləri, BK Ticarət və İnvestisiya, Akademik Texnologiyalar, Məlumat və Məsləhətçilik və s. mövcuddur.

və Birlik Ölkələrinin üzvləri ilə əlaqələrin icrası və BK-nın tabeliyindəki ərazilərin idarə olunması üçün də məsuliyyət daşıyır.

Digər tərəfdən, 11 parlament üzvündən ibarət Xarici İşlər Komitəsi də Xarici İşlər və Birlik Ölkələri İdarəsininin və əlaqədar təşkilatlar olan British Council və BBC World Service təşkilatlarının siyasəti, rəhbərliyi və xərclərinə nəzarət edir. Komitə bununla bağlı mövzularda hesabatlar hazırlayır və Hökumətə təqdim edir. Komitə üzvləri, İcmalar Palatası tərəfindən təyin edilir və bu üzvlər həm iqtidar həm də müxalifət partiyalarının millət vəkilləri olabilər. Komitənin fəaliyyətində müşahidəçi olaraq digər vəzifəli və səlahiyyətli şəxslər, alim və tədqiqatçı institut və təşkilatlar, maraq qrupları, beynəlxalq təşkilatlar, keçmiş diplomatlar və jurnalistlər iştirak edə bilər. Komitə Palataya hesabat təqdim edir, hökumətə də təkliflər təqdim edə bilər. Komitənin hesabatları Palatada müzakirə edilir.





## ÇİN: DİASPOR VƏ "DİL DİPLOMATİYASI"

Çin diasporu əsasən 19-cu əsrdən 1949-ci ilə qədər ölkədəki müharibə və aclıqdan irəli gələn geniş miqyaslı köç proseslərindən meydana çıxmışdır. Hazırda xaricdə 50 milyon çinlinin olduğu təxmin edilməkdədir. Bu diasporun böyük bir qismi (təqribən 30 milyon) Cənubi-Şərqi Asiyada (İndoneziya, Tayland, Malayziya, Sinqapur) məskunlaşmışdır. Bu regionun iqtisadiyyatlarında elit qrupların əksəriyyətinin çinlilərdən ibarət olduğu da bilinməkdədir. Afrika qitəsində 750 mindən çox çinli yaşayır. Xaricdəki Çin diasporunun əhəmiyyətli hissəsini və eyni zamanda da gücünü təhsil almaq üçün xarici ölkələrə gedən tələbələr meydana gətirir. Statistikaya görə, hər il 100.000-dən çox çinli xaricdə təhsil almaq üçün Çini tərk edir. 2020-ci ildə bu rəqəmin 300.000-ə yüksələcəyi proqnozlaşdırılmaqdadır. Bu tələbələrin ən böyük hissəsi ABŞ-a gedir. Birləşmiş Krallıq, Almaniya, Yeni Zelandiya və Yaponiyada da on minlərlə çinli təhsil almaqdadır.

Çin dil siyasəti vasitəsilə bütün dünyada Çin dili və mədəniyyətinin yayılması ilə yanaşı, ölkələrlə ticarət əlaqələrinin inkişaf etdirilməsini də qarşısına məqsəd qoymuşdur. Bu siyasət ölkənin əsas partiyasının "yumuşaq güc" siyasəti baxımından da əhəmiyyət kəsb edir.

Dünyada Çin dilinin artan əhəmiyyətinə ABŞ-dan misal göstərilə bilər. Belə ki, ABŞ-da bu dili öyrənmək üçün kurslara gedənlərin sayı sürətlə artmaqdadır (2000-ci ildə 5 min tələbə, 2010-cu ildə 60 mindən çox tələbə). Bununla yanaşı, on minlərlə tələbə Çinin təhsil müəssisələrində təhsil almaq üçün bu ölkəyə getməkdədir.

Eyni zamanda, son illərdə mütəmadi olaraq dünya Çin konfransları keçirilir. Üçüncüsü 2012-ci ilin noyabr ayında Pekində təşkil olunan konfransların əsas mövzuları arasında, Çin

filologiyasının intibahı, Çin tədqiqatları və dünyada yeni iqtisadi nizam, Çin klassik əsərlərinin digər dillərə tərcüməsi, gənc Çinşünaslar və Çin tədqiqatları üçün təqaüdlərin artırılması və digər məsələlər yer almışdır. Ayrıca konfrans müddətində dünyadakı Konfutsi İnstitutlarının Forumu, Çin Dil Mükafatlarının laureatlarının Forumu da təşkil edilmişdir.

Çin, eyni zamanda Böyük Britaniya, Fransa, Almaniya və İspaniya kimi ölkələri nümunə alaraq dil və mədəniyyətinin yayılması üçün lazımlı siyasi dəstəyi vermiş və bu çərçivədə də qeyri-hökumət təşkilatlarının yaradılması geniş vüsət almışdır.

Çin Xalq Respublikasının Dövlət Şurası nəzdində xaricdə yaşayan çinlilərlə əlaqələrdən məsul olan Xaricdə Yaşayan Çinlilər İdarəsi[10], 1978-ci ildən bəri fəaliyyət göstərir. Bu sahədə ondan əvvəl Xaricdə Yaşayan Çinlilər Komitəsi (1949-ci ildə təsis edilmişdir) fəaliyyət göstərməkdədir. Hazırda bu idarə Baş Nazirə aşağıdakı mövzularda hesabat verir:

- Xaricdəki çinlilərlə əlaqədar mövzularda siyasət və nizamnamələrin tədqiq olunması və formalaşdırılması;
- Xaricdəki çinlilərlə əlaqədar inkişaf plan və proqramlarının hazırlanması;
- Dövlətin əlaqədar təşkilat və təşkilatlarının xaricdə yaşayan Çinlilərlə müvafiq işlərinin koordinasiyasının təmin edilməsi;
- Xaricdəki çinlilərin qanuni hüquq və mənafelərinin qorunması, bu birliklər arasındakı birlik və dostluğun gücləndirilməsi;
- Xaricdəki çinli KİV-lərin və çin dili məktəblərinin dəstəklənməsi, xaricdəki çinlilərin Çinlə iqtisadiyyat, elm,

[10] Xaricdə Yaşayan Çinlilər üzrə İdarə altı departamentdən ibarətdir: Katiblik və İnzibati İşlər Şöbəsi, Xaricdəki Çinlilər üzrə Siyasət Şöbəsi, Xarici İşlər Şöbəsi, İqtisadiyyat, Elm və Texnologiya Şöbəsi, Mədəniyyət, Təhsil və Yayım İşləri Şöbəsi, Personal Şöbəsi.





mədəniyyət və təhsil sahələrində qarşılıqlı əməkdaşlığının təmin edilməsi;
- Xaricdən Çinə geri qayıdan soydaşların və onların qohumlarının ölkə içərisində qanuni hüquq və mənafelərinin qorunması və bu istiqamətdə lazım olan siyasət və qaydaların müəyyən edilməsi, geri qayıdan soydaşlar arasından millət vəkili seçkilərində lazım olan dəstəyin verilməsi.

## "ÇİNLİ OLMAQ"

Çinli olaraq-Çində doğulanlar ya da onların nəsilləri nəzərdə tutulmaqdadır. Birbaşa Çin mənşəli olanlar ya da Çin mədəniyyətini mənimsəyənlər də özlərini çinli olaraq adlandıra bilərlər.

## "DİL DİPLOMATİYASI": CONFUCIUS VƏ HANBAN

Qeyri-hökumət təşkilatı olan Konfutsi (Confucius Institute) İnstitutu, birbaşa Çin Xalq Respublikası Hökuməti nəzdində fəaliyyət göstərib, bütün dünyada Çin dili və mədəniyyətinin öyrədilməsi istiqamətində vəsait və xidmətləri təmin edir. 2004-ci ildə yaradılan bu təhsil təşkilatı çox vaxt Birləşmiş Krallığın British Council, Fransanın Alliance Française və Almaniyanın Goethe İnstitutu ilə müqayisə edilir. Lakin sözü gedən bu təşkilatlardan fərqli olaraq, Konfutsi İnstitutları bağlı olduğu hökumətdən müstəqil şəkildə fəaliyyət göstərdiyini iddia etmir, ümumiyyətlə dünya üzrə universitet, kollec, orta təhsil qurumlarında vəsait, müəllim və təhsil vəsaitlərinin təmini üçün fəaliyyət göstərir. Bu təşkilatlar, Çinin "yumuşaq gücünün" və beynəlxalq mədəni əlaqələrinin artırılmasında əhəmiyyətli rol oynamaqdadır. İnstitutun igamətgahı Pekində olub, fəaliyyət proqramları Beynəlxalq Çin Dili Şurası Ofisi (Hanban) tərəfindən

hazırlanır. Bütün dünyaya yayılmış bu institutlar, yerli səviyyələrdə əlaqədar universitetlər və kolleclərdə fəaliyyət göstərir və maliyyələşdirilməsi Hanban tərəfindən həyata keçirilir. "Konfutsi Dərsliyi" proqramı vasitəsilə orta məktəblərlə də əməkdaşlıq edilir və onlar müəllim və dil tədrisi materialları ilə təmin edilir. Konfutsi İnstitutu dil kursları və Çin Xarici Dil imtahanlarını (HSK) təşkil edir. Bundan başqa, təşkilat dünyada Çin dilini öyrədəcək müəllimlərin yetişdirilməsi sahəsində də fəaliyyət göstərir.

Təşkilat pilot layihəsi olan ilk şöbəsini 2004-ci ilin iyun ayında Özbəkistanın Daşkənd şəhərində açmış, daha sonra isə ilk Konfutsi İnstitutunu eyni ilin noyabr ayında Cənubi Koreyanın Seul şəhərində açmışdır. Bundan başqa başda ABŞ, Yaponiya və Cənubi Koreya olmaqla onlarla ölkədə yüzlərcə İnstitut açılmışdır. 2010-ci ildən etibarən, 96 ölkədə 322 Konfutsi İnstitutu və 369 Konfutsi Dərsliyi mövcuddur. Hanban 2020-ci ilə qədər daha 1000 İnstitutunun açılmasını nəzərdə tutur. İnstitutun mərkəzi rəhbərliyi Çin Kommunist Partiyası ilə sıx əlaqələrə malik olub, Hanbanın hazırkı rəhbəri Partiyanın Siyasi Bürosunun üzvüdür. Digər İnstitutlar də mərkəzi ofis tərəfindən müəyyənləşdirilmiş plan çərçivəsində fəaliyyət göstərir və əsas vəsaiti dövlətdən alır. Bəzi fikirlərə görə, Konfutsi institutlarında Tayvan və Honkonq xaricində, yalnız Çində istifadə edilən əlifbanın öyrədilməsi və Tayvan və Honkonqda istifadə edilən klassik Çin hərflərinin öyrədilməməsi də Çinin dövlət siyasətinin bir hissəsi olmaqdadır.

Çin Təhsil Nazirliyinin nəzdində fəaliyyət göstərən və Çin dilinin beynəlxalq sahədə irəli sürülməsi istiqamətində siyasət aparan Beynəlxalq Çin Dili Şurası Ofisi (Hanban), digər ölkələrdə Çin dilinin hər səviyyədə öyrədilməsinə dəstək verir və Çin dilinin öyrədilməsinin beynəlxalq standartlarını müəyyən edərək dilin tədris vəsaitlərini də təmin edir. Hanban təşkilatı, eyni zamanda Çin Körpüsü (China Bridge) proqramını da





maliyyələşdirir. Hanban Şurasında, Çin hökumətinin on iki nazirliyi və komissiyası təmsil olunur. Hanban müntəzəm olaraq Konfutsi İnstitutu konfranslarını da təşkil edir. Ümumiyyətlə, Hanban və bütün dünyada fəaliyyət göstərən Konfutsi İnstitutlarının məqsədi, Çinə müsbət imic qazandıraraq, sürətli iqtisadi inkişafdan irəli gələn və dünyada yayılan "Çin təhlükəsi" anlayışını aradan qaldırmaqdır.

Çin dövlətinin xaricdə olan çinlilərlə sıx əlaqələri mövcuddur. Dövlət xaricdəki soydaşların bilik-bacarıq və sərmayəsini Çinin inkişafı istiqamətində əhəmiyyətli vasitə olaraq görməkdədir. Bu baxımdan Çin dünyada Hindistandan sonra xaricdən ən çox maliyyə vəsaiti köçürmələri alan ikinci ölkədir.

Ölkədə xaricdəki çinlilərlə bağlı fəaliyyət göstərən başqa idarələr də mövcuddur. Eyni zamanda ölkədə yerli idarəetmə orqanlarının nəzdində xaricdəki çinlilərlə əlaqədar bürolar fəaliyyət göstərir. Çinin Xalq Konqresində ölkəyə geri qayıdan çinlilər üçün üzv kvotası (8) nəzərdə tutulmuşdur.

## "ÇİN KÖRPÜSÜ"

Çin Körpüsü (Chinese Bridge-Əcnəbi tələbələr üçün Çin dili *Müsabiqəsi) Hanban tərəfindən* rəsmi səviyyədə xarici tələbələrin Çin dili səviyyəsini ölçmək və mükafatlandırmaq üçün təşkil edilən proqramdır. 2002-ci ildən bəri hər il təşkil edilən müsabiqələrdə bütün dünyadan yüzlərlə xarici tələbə Çinə gəlmə imkanı ilə mükafatlandırılmaqdadır. Hər il fərqli mövzuda keçirilən Çin Körpüsü Proqramı 2012-ci ildə "Mənim Çin Röyam" mövzusunda həyata keçirilmişdir.

Bu proqram üç hissədən ibarətdir:

- Xarici ölkələrdəki kollec şagirdləri üçün "Çin Körpüsü" Çin Dili Müsabiqəsi;
- Xarici ölkədəki universitet tələbələri üçün "Çin Körpüsü" Çin Dili Müsabiqəsi;

Çindəki əcnəbi tələbələr üçün "Çin Körpüsü" Çin Dili Müsabiqəsi.

Bu müsabiqə Hanban və digər ölkə hökumətlərinin əməkdaşlığı ilə təşkil olunur və KİV-lər tərəfindən geniş işıqlandırılır. Program bütün dünyada Çin dilinin öyrənilməsi üçün motivasiyanı və gənclərin Çinlə əlaqəsini təmin etməkdədir. Program çərçivəsində qaliblərdən ibarət heyətlərin Çinə həftəlik səfərləri (Məs. 2006-ci ildə 4 dəfə "Amerika məktəbləri üçün Çin Körpüsü") təşkil edilir. Maraqlıdır ki, Çini ziyarət edən bu şagirdlərin bir qismi gələcəkdə hər hansı bir şəkildə təhsil və ya iş həyatlarını Çinlə əlaqələndirmək arzusunu ifadə edir.





## ERMƏNİSTAN: DİASPOR VƏ "HAYASTAN"

Bütün dünyada ermənilərin sayının 10-12 milyon arasında olduğu, bunun 3,3 milyonunun Ermənistanda yaşadığı bildirilir. Diaspor ermənilərinin sayı təqribən 8 milyondur.

Diaspor sahəsindəki siyasətin həyata keçirilməsi üçün, 2008-ci ilin 1 oktyabr tarixində, Ermənistan prezidentinin təlimatı ilə ölkənin diasporla əlaqələrinin təşkil edilməsi və inkişaf etdirilməsi məqsədi ilə Ermənistan Diaspor Nazirliyi[11] yaradılmışdır. Nazirlik yalnız xaricdəki ermənilərin (vətəndaş olanlar və ya yalnız erməni mənşəli olan soydaşlar) problemləri ilə deyil, eyni zamanda Ermənistan və xalqının bütün dünyadakı imicinin gücləndirməsi, erməni məktəblərinin inkişafı, xaricdəki soydaş gənclərin erməni mədəniyyəti və dininə bağlılığı istiqamətində fəaliyyət göstərir. Bundan başqa, erməni iş adamlarına dünyada və ölkədə əlverişli mühitin yaradılması, dünyadakı bütün erməni ixtisas komissiyalarının təşkilatlanması, diaspor üzvlərinin ikili vətəndaşlığı almaları üçün konkret tədbirlərin həyata keçirilməsi də nazirliyin vəzifələri arasına daxil edilmişdir. "Diaspor Nazirliyi hər bir erməni diasporunun evidir" şüarıyla çalışan nazirlik, bütün xarici diaspor icmalarını əsasən üç istiqamət üzrə səfərbər etməkdədir: sözdə "Erməni soyqırımının" hər yerdə tanınması, Qarabağ probleminin sülh yolu ilə həlli, anti-erməni təbliğatla mübarizə. Bu nazirliyin nəzdində Ali Heyət fəaliyyət göstərib, ölkədə və xaricdəki tanınmış ermənilərdən ibarətdir və nazirliyin məsləhət orqanı şəklində çalışmaktadır.

---

[11] Nazirliyin təşkilat quruluşu belədir: Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsi, İnformasiya və Əlaqələr İdarəsi, Avropa Erməni İcmaları İdarəsi, Amerika Erməni İcmaları İdarəsi, MDB Erməni İcmaları İdarəsi, Yaxın və Orta Şərq Erməni İcmaları İdarəsi, Beynəlxalq Kilsə quruluşları ilə Əlaqələr İdarəsi, Miqrasiya və Tədqiqatlar İdarəsi, Ümumi Erməni Programları İdarəsi.

2012-ci ildə büdcədən Diaspor Nazirliyinə təqribən 2 milyon dollar ayrılmışdır.

## "HAYASTAN" ÜMUMİ ERMƏNİ FONDU

Bu fond, 1992-ci ildə təsis edilmişdir və "bütün dünyadakı erməniləri və tərəfdarlarını Gənc Ermənistanın və Artsaxın inkişafı" ətrafında toplamaq məqsədi güdməkdədir. Fondu Ermənistan prezidentinin rəhbərlik etdiyi Heyət idarə edir. Fondun 19 ölkədə 22 şöbəsi (Los-Anceles, Nyu York, Fransa, Toronto, Monreal, Birləşmiş Krallıq, Almaniya, Hollandiya, İsveçrə, Avstriya, İsveç, Livan, Avstraliya, Braziliya, Argentina, Yunanıstan, Kipr, Suriya, Uruqvay, Rumıniya və Rusiya) mövcuddur. Fondun büdcəsi[12] hər il, bütün dünyada həyata keçirilən televiziya, telefon (SMS və s.), radio və velosiped marafonları kampaniyalarından, yemək, konsert və sərgilərdən yığılan vəsaitdən formalaşır. 1996-ci ildən etibarən Los-Ancelesdə, bütün dünyaya yayımlanan TV marafon kampaniyası aparılır, burada il ərzində Ermənistan və ümumiyyətlə bütün diasporda yığılmış vəsait bir araya gətirilir və bu yardımları göstərən erməni icmaları qarşısında hesabat verilir. Ümumi Avropa telefon marafonu kampaniyası isə, hər il Fondun Fransadakı şöbəsi tərəfindən həyata keçirilir və Fransa, Almaniya, Hollandiya və Yunanıstandakı erməni ailələri tərəfindən o ilin ən böyük layihələri üçün vəsait yığılır. Telefon marafonları Uruqvay və Argentinada da həyata keçirilir. Fond digər tərəfdən də sözdə "Qarabağ veteranlarına" ictimai dəstək verir və digər soydaş ermənilər üçün də məktəb və s. infrastruktur layihələri həyata keçirir. Fond gənc istedadlı soydaşlarla da iş

[12] Demək olar ki, bütün erməni diaspor təşkilatlarının, hətta rəsmi təşkilatların internet saytlarının ana səhifələrində, "Dəstək ol", "Yardım et" və s. kimi ziyarətçinin anında yardım edə biləcəyi linklər və mexanizmlər işlənib hazırlanmışdır.





aparır. Bütün diasporlar tərəfindən yığılan vəsait Ermənistanda magistrallar, mənzil tikinti və s. geniş miqyaslı quruculuq işlərinə sərf olunur.

1928-ci ildə isə Qahirədə, "Hamazkayin" Təhsil və Mədəniyyət Cəmiyyəti təsis edilmişdir. Məqsədi, gənc erməni nəslinin milli kimlik, təhsil və mədəni ənənələrinin mühafizə edilməsidir. Bu təşkilatların bir çox ölkədə nümayəndəliyi mövcuddur. "Hamazkayin" onlarla orta və ali məktəb təsis etmişdir. Bir çox yazıçı, filoloq və siyasətçi bu məktəblərdən məzun olmuşdur. Mətbuat-nəşr fəaliyyətlərini də icra edən təşkilat, 70 ildə bütün dünyadakı erməni xalqının mədəni inkişafına töhfə vermişdir.

Bununla yanaşı, 2001-ci ildən bəri prezidentin rəsmi iqamətgahında Ermənistan prezidentinin mükafatları da təqdim edilir. Sözü gedən mükafatlar sözdə "1915 Erməni soyqırımının tanıdılması istiqamətində görülən böyük xidmətlər" üçün verilir.[13] Digər tərəfdən Ermənistan prezidenti tərəfindən "Gənclər Mükafatı" da (İncəsənət və Kino, Ədəbiyyat, Vokal musiqi, İnstrumental ifalar) təsis edilmişdir.

## SÖZDƏ "ERMƏNİ SOYQIRIMI" DİPLOMATİYASI

1972-ci ildə təsis edilən Amerika Erməniləri Assambleyasının məqsədi, ABŞ rəsmi idarələrində "ermənilərin səsini eşitdirmək", xüsusilə də sözdə "erməni soyqırımı" mövzusunun üzərində təbliğat və təşviqat kampaniyası həyata keçirməkdir. Təşkilat 1970-ci illərdən bəri Vaşinqtonda yüzlərlə yay məktəbi proqramlarını həyata keçirir. Assambleyanın üzvlərinin sayı 10 minə yaxındır. Assambleya, Vaşinqtondakı araşdırma və beyin mərkəzləri, mərkəzi rəhbərlik, Konqres, milli

[13] Digər mükafatlar bu sahələrdə verilir: Təbiət elmləri, Texniki elmlər və İnformasiya Texnologiyaları, Fizika, Tibb elmləri, İncəsənət, Ədəbiyyat, Humanitar elmlər.

KİV-lərə çox yaxın fəaliyyət göstərir. Bu təşkilatın sayəsində, zəlzələdən zərər görmüş o dövr Sovet Ermənistanına Konqresdən böyük kömək nəzərdə tutulmuş və Ermənistana illik 1,4 milyard dollarlıq yardım Konqresdə demək olar ki, bir normaya çevrilmişdir. Bununla yanaşı, Assambleya sayəsində, Konqresdə Ermənistan Məsələləri üzrə Konqres Məclis Qrupu yaradılmış və bu qrup erməni mövzularında Assambleya ilə sıx əməkdaşlıq çərçivəsində fəaliyyət göstərməkdədir. Assambleyanın səyləri ilə 1997-ci ildə Erməni Milli İnstitutu təsis edilmişdir və sözdə "erməni soyqırımı" mövzusunda akademik tədqiqat və s. fəaliyyətlər reallaşdırır. Assambleyanın illik büdcəsi təqribən 3,5 milyon dollardır.

2012-ci ilin oktyabr ayında Ermənistanda, sözdə "erməni soyqırımının" 100-cü ilinə hazırlıq məqsədilə, Ermənistan Diaspor nazirinin aktiv iştirakı ilə Ermənistan və dünyadakı erməni mənşəli media nümayəndələrinin Ümumi Forumu keçirilmişdir, burada 20 ölkədən mövzuyla əlaqədar 50-ə yaxın təqdimat və çıxış təqdim edilmişdir. Forum, iştirakçılarının Milli Məclisə, Xarici İşlər və Müdafiə Nazirliyinə ziyarəti, Baş nazir, Məclis sədriylə görüşü təşkil edilmişdir. Forumda bütün media nümayəndələrinin "Erməni soyqırımının 100-cü il ərəfəsində tek bir strategiyanın tətbiqi" qərarı alınmışdır. Ümumiyyətlə isə diasporun, istər sözü gedən mövzu, istər "Artsax" deyə adlandırdıqları Qarabağ problemi, istərsə də bütün dünyada erməniliyin inkişafı mövzularında səfərbər olmağının zəruriliyi vurğulanmışdır.





## İSPANİYA: DİL VƏ MƏDƏNİ DİPLOMATİYA

İspan hökuməti tərəfindən xaricdə İspan və İspan dilli ölkələrin mədəniyyətinin tanıdılması və yayılması istiqamətində müxtəlif vasitə və mexanizmlərdən istifadə edilir. Bu mexanizmlər xaricdə yaşayan İspan soydaşlar üçün təşkil edilən dil kursları, təhsil təqaüdləri, mədəniyyət proqramları, peşə təhsili və digər fəaliyyətləri əhatə edir. Bununla yanaşı, xaricdə təşkilatlanan İspanlar Şurası ofisləri də xaricdəki səfirlik və ya konsulluqların nəzdində öz regionlarında yaşayan ispan icmalarına onların maraqları istiqamətində məsləhət fəaliyyətləri göstərir.

### "İSPAN OLMAQ"

"İspan" tərifi, İspaniyadan köçən ispanlar və onların nəsillərini əhatə edir. İspan diasporu daha çox Argentina, Braziliya, Çili, Kolumbiya, Kuba, Meksika, Uruqvay, Venesuela və Latın Amerikasının digər hissələrində, nisbətən daha az sayda isə ABŞ, Kanada və Avropada məskunlaşmışdır. Amerikanın ispan miqrantların seçtiyi ilk məskən olması müstəmləkə keçmişi ilə əlaqələndirilə bilər. 2012-ci ilin statistik rəqəmlərinə əsasən, dünyadakı milliyyətcə ispan olanların sayının 1.816.835 olduğu (bunlardan 654.395-i İspaniyada doğulan), ümumi olaraq 100 milyon İspaniya mənşəli əhalinin olduğu bildirilməkdədir.

### "İSPAN DİLİ DİPLOMATİYASI"

Missiyası-bütün dünyada İspan dilinin ikinci dil olaraq öyrədilməsinin, öyrənilməsinin, istifadə edilməsinin dəstəklənməsi və İspan-Latın Amerikası mədəniyyətlərinin tanıdılması olan Cervantes İnstitutu 1991-ci ildə İspaniya hökuməti tərəfindən təsis edilən dünya miqyaslı qeyri-hökumət təşkilatıdır. Bu təşkilat, eyni zamanda bütün dünyada ispan dilinin öyrədilməsi və Latın Amerikası ölkələrinin mədəniyyətinin tanıdılması üzrə fəaliyyət göstərən ən geniş miqyaslı təşkilatdır. Hazırda Cervantes İnstitutunun beş qitə üzrə 44 ölkədə 77 mərkəzi mövcuddur. İnstitutun iqamətgahı Migel de Servantesin doğulduğu yer olan

Madriddə yerləşir. Təşkilat müxtəlif ölkələrdəki şöbələrinə məxsus kitabxanalar və mədəniyyət proqramları vasitəsi ilə İspaniya mədəniyyətinin dəqiq və geniş bir şəkildə tanıdılmasını qarşısına məqsəd qoymuşdur. Bu məqsədlə, Cervantes İnstitutu:

İspan dili imtahanları (DELE) və bu imtahanların nəticəsi olaraq dil sertifikat və diplomlarının verilməsi;

İspan dili kurslarının təşkil edilməsi;

İspan dili müəllimləri üçün təhsil proqramlarının təşkil edilməsi;

İspaniya üzrə dil, mədəniyyət və s. mövzularda çalışanlara dəstəyin təmin edilməsi;

Digər təşkilatlarla birlikdə mədəni fəaliyyətlərin təşkili üzrə iş aparır.

İnstitutun ölkələrdəki şöbələrinin nəzdində konsert, film nümayişləri, şəkil və fotoşəkil sərgiləri, kitab təqdimatları, teatr, seminar və konfranslar keçirilir. İnstitutun illik büdcəsi təqribən 100 milyon avrodur. Bununla yanaşı, ispan dili və ispan mədəniyyətinin bir çox ölkədə öyrənilməsi və tanıdılmasının təmin edilməsi sahəsində institut ilə əməkdaşlıq edən İspan Dili Fondu (Spanish Language Foundation) kimi digər təşkilatlar da mövcuddur.

Digər bir təşkilat İspan Dili Akademiyaları Assosiasiyası (ASALE), ispan dili ilə əlaqədar məsələləri tənzimləyir, 1951-ci ildə Meksikada təsis edilmişdir və ispan dilində danışan ölkələrdəki akademiyaların (30-dan çox) birliyini təmsil edir. Eyni zamanda assosiasiya, ispan dilinin inkişafı üçün Karolina Fondunu təsis etmişdir. Təşkilat dörd ildə bir beynəlxalq konqreslər keçirir. Bu konqreslərin ümumiyyətlə əsas aktual mövzuları – ispan dilinin bir dil olaraq ideoloji və sosioloji xüsusiyyətləri, dilin inkişaf etdirilməsi və ispan dilinin beynəlmiləl dil olmasıdır. Assosiasiyaya üzv olan akademiyaların yerləşdiyi ölkələrin hökumətlərinin bu təşkilata akademik və ümumiyyətlə maliyyə dəstəyini verməsi üçün razılaşma əldə edilmişdir.





## İSRAİL: DİASPOR VƏ "ALİYA"

İsrail və yəhudi diasporunun ortaq marağı yəhudi xalqının gələcəyi və İsrail-diaspor əlaqələridir. Yəhudi diasporu millətçiliklə yanaşı etno-milli bir xarakterə malikdir. Yəhudi diasporunun əhalisi təqribən 8 milyon, İsrailin əhalisi isə 5 milyondur. Dünyadakı yəhudi şəbəkələri öz fəaliyyətlərində ana vətən-diaspor həmrəyliyi, diaspor-İsrail əlaqələrinin gücləndirilməsi, yəhudi diasporu aləmində yəhudi dövlətinin mərkəzi yerinin tanınması, İsrailə "dönüş" və İsrailə lazımlı iqtisadi, siyasi və diplomatik dəstək üçün səy göstərməkdədirlər.

Ümumiyyətlə, İsrail dövlətinin diaspor və ya soydaş siyasətində, MDB ölkələrinin əhəmiyyətli prioritetlərdən biri olduğu müşahidə edilir. Belə ki, diaspor və soydaş təşkilatlar, bu regiondakı yəhudilərə xüsusi əhəmiyyət verir. Məsələn, "Sochnut" Yəhudi Agentliyi bu regionda bazar günü məktəbləri, dil kursları xidmətlərini verməkdədir. Sözü gedən təşkilat, keçmiş SSRİ bölgəsindəki 12 ölkədə 106 bazar günü məktəbini təşkil etməkdədir. Bu məktəblərdə 400 müəllim işləyir və 3500 tələbə təhsil alır. Mövzu olaraq yəhudi xalqının tarixi, yəhudi ənənəsi, musiqisi və rəqsləri, yaradıcılıq, sənət, teatr, ingilis dili və s. öyrədilir. Bu agentliyin əsas məqsədi, İsrail soydaşları arasında yəhudiliyin din, dil və mədəniyyət baxımından unudulmasının qarşısını almaqdır. Agentlik eyni zamanda, İsrailin coğrafi və ictimai baxımdan ən ucqar yerlərindən gələn uşaqların təhsili sahəsində də iş aparır.

Yəhudi tarix, mədəniyyət və dilinin qorunması üçün bir sıra effektiv gənclik layihələri də həyata keçirilir, məs., "Taglit" layihəsində iştirak edən gənclərə İsrailə səfər, müxtəlif seminar və kurslar, israillilərlə görüş imkanları təqdim olunur. "Masa" proqramı ilə isə gənc yəhudi soydaşları İsraildə 5 aydan 1 ilə qədər təhsil alma imkanı qazanır. "Masa" (Səyahət) İsrail hökumətinin diaspor gəncləri üçün təşkil etdiyi bir layihə olub,

məqsədi gənc soydaşların İsrailin universitetlərində təhsil almasını təmin etməkdir.

"Gələcəyin İntellektualları" ("Binat Atid") layihəsinin məqsədi isə soydaş icması və diasporu içərisindəki gələcək ziyalıları müasir İsraillə tanış etməkdir. Layihədə xaricdə yaşayan elm, mədəniyyət, tarix və İsrailin gündəliyinə maraq göstərən müvəffəqiyyətli və istedadlı lisey şagirdləri iştirak edir. Bundan başqa, "Ulpan" adı altında MDB ölkələrində yəhudi dilini öyrədən mərkəzlər də fəaliyyət göstərir.

Bununla yanaşı, 80 ildən çoxdur ki, mərkəzdə güclü İsrail olması surətiylə bütün yəhudi xalqının birliyi üçün çalışan və bütün dünyadaki soydaşlara xidmət edən qeyri-hökumət və qeyri-kommersiya xarakterli beynəlxalq bir təşkilat olaraq Yəhudi Agentliyi (mərkəzi Qüdsdür) 58 ölkədə nümayəndəlikləri vasitəsilə fəaliyyət göstərir. Təşkilatın idarəetmə orqanlarına israillilər və diaspor nümayəndələrindən ibarət olan üzvlər daxildir. İsrail dövləti qurulduqdan sonra təşkilatın bir çox vəzifəsi, rəsmi dövlət orqanlarına verilmiş və agentlik yalnızca dünyadakı yəhudi icmaları ilə işləməyə başlamışdır. Çünki bu təşkilat əvvəllər (1929-ci ildə) İsrail dövlətinin qurulmasını təmin etmək üçün yaradılmışdır. Bu məqsədlə, 1948-ci ilin mart ayında yeni qurulmuş İsrail dövləti hökumətinə sözü gedən təşkilatın üst səviyyə üzvləri daxil edilmişdir. Təşkilatın rəsmi saytında İsrail soydaşlarına səslənərək, "Birlikdə biz Eres-İsrail dövlətinin qurulması və 3 milyon soydaşın geri qayıtması üçün çalışdıq" deyilir. Agentlik 500-dən çox yəhudi icması ilə iş aparır. Əsas vəzifələri - yəhudi soydaş gənclərinin İsrail dövləti və xalqı ilə əlaqələrini gücləndirmək, vətənə qayıtmağı təşviq etmək, İsrail və diaspor gənclərində ictimai fəaliyyətlərə maraq oyatmaq və bir-birini tanımasını təmin etmək, dünyada yardıma ehtiyacı olan hər hansı bir yəhudi icmasına təcili kömək etmək və rus yəhudiliyinə yəhudi xalqının ənənə və dilini geri qaytarmaq olan təşkilatın saytında - soydaşların uğurlarına işıq tutan bir səhifə ayrılmışdır





və burada məsələn, uğurlu bir yəhudi həkim, alim, diplomat, sahibkar-biznesmen, elm və texnologiya mütəxəssisi və s. peşə nümayəndələrinin uğurları əks olunmaqdadır. Təşkilatın büdcəsi təqribən 320 milyon dollardır. Bunun 70%-i xaricdə olan yəhudi diasporu tərəfindən daxil olan ianələrdən formalaşır.

## "YƏHUDİ OLMAQ"

Ölkənin ən əhəmiyyətli mövzularından biri sayılan və 1950-ci ildə qəbul edilmiş "Geri Dönüş Haqqında" Qanuna görə, hər yəhudi, onun həyat yoldaşı, uşaqları, nəvələri İsrailə geri qayıdabilir. Qanunun ilk layihəsində "yəhudi" tərifi belə verilir: "yəhudi anadan doğulan, ya da yəhudi dinini (yəhudilik) qəbul edən hər hansı bir şəxs". 1970-ci ildəki dəyişikliklə qanuna "yəhudi anadan doğulan, lakin başqa dini qəbul etməmiş olanlar ya da sonradan yəhudi dininə keçənlər" cümləsi əlavə olunmuşdur.

## "ALİYA"

Bu anlayış yəhudilərin vətənə, İsrailə geri qayıtma hərəkatı mənasını daşıyır. Bu ad altında 10 ölkədən geri qayıtmaq üçün dəstək məqsədi ilə pulsuz telefon xidməti fəaliyyət göstərir, burada soydaşın İsrailə geri qayıtdıqdan sonra mənzil ehtiyacından sürücülük vəsiqəsinin alınmasına qədər hər cür məlumat verilməkdədir. Geri qayıtmaq haqqını, soydaşın yaşadığı ölkədə fəaliyyət göstərən İsrail konsulu verir. Bu statusu alan avtomatik olaraq İsrail vətəndaşlığını da alabilər. Geri qayıdan yəhudinin yəhudi olmayan yoldaş və uşaqları da eyni hüquqlardan istifadə edə bilər. Yeni vətəndaşlıq alan soydaşlar dövlətdən bəzi imtiyazlar və maddi dəstək alırlar. "Geri Dönüş Layihəsinə Dəstək Mərkəzi" də fəaliyyət göstərir ki, o da İsraillə əlaqədar turizm, proqramlar, universitetlər, İsraildə həyat və iş

həyatı, geri qayıtdıqdan sonra iş və məskən tapmaq, və s. imkanlar haqqında geniş məlumatla təmin edir.

İsraildə diaspor sahəsində müxtəlif təşkilatlar fəaliyyət göstərir. Bu baxımdan "Nativ" təşkilatı 1952-ci ildə o zamanki baş nazirin təşəbbüsü ilə təsis edilmişdir və İsrail-diaspor arasındakı əlaqələrin inkişaf etdirilməsini qarşısına məqsəd qoymuşdur. "Nativ" İsrail baş nazirinin katibliyinin nəzdində fəaliyyət göstərir və xüsusilə MDB ölkələrindəki yəhudi icması ilə əlaqələri təmin edir. Bu təşkilatın fəaliyyəti keçmiş SSRİ ölkələrində onlarla İsrail Mədəniyyət Mərkəzləri vasitəsilə reallaşdırılır. Mədəniyyət mərkəzləri İsrail səfirliklərinin nəzdində fəalliyət göstərir. Burada təhsil proqramları, seminar, tematik görüşlər, milli bayramlar və tarixi günlərin qeyd edilməsi və soydaşların başqa mədəni-ictimai fəaliyyətləri keçirilir. Hər il təşkilata ümumi büdcədən təqribən 21 milyon dollar ayrılır.

Digər bir təşkilat - United Israel Appeal (UIA) 1925-ci ildə təsis edilmişdir və digər diaspor təşkilatları üçün əsas resurları təmin edir. Bu resurslar əsasən ABŞ-da təşkil edilərək, İsrail üçün Yəhudi Agentliyi vasitəsilə, xüsusilə 1973-ci ildən etibarən yəhudi emmiqrantların İsrailə geri qayıtması üçün istifadə edilməkdədir. Bununla yanaşı, xüsusilə ABŞ-da (məs., Los Angeles Şəhər Yəhudi Federasiyası Şurası) Yəhudi Federasiyası Şuraları da fəaliyyət göstərib, o ölkədəki soydaşları təmsil edir. Təşkilatın illik büdcəsi təqribən 30 milyon dollardır. 1953-ci ildə qurulmuş Amerika İsrail İctimai İşlər Komitəsi (AIPAC), ABŞ Konqresində və icra orqanlarında İsrail tərəfdarı siyasətin müdafiəçisi olaraq tanınır. Bu komitə Amerikanın ən kütləvi təşkilatlarından olub, üzvləri arasında demokrat, respublikaçı və müstəqil fikirlilər də mövcuddur. O, həmçinin ABŞ-İsrail əlaqələrinə ən çox töhfə verən təşkilat olub, Vaşinqtonda ən fəal lobbi təşkilatlarıńdan biridir. Komitənin ilk yaradıldığı illərdə belə ABŞ-ın bütün Orta Şərq siyasətinin müəyyənləşdirilməsinə təsiri olmuşdur. Komitə ABŞ-daki





seçkilərdə namizəd, partiya qrupları və digər siyasi kampaniyaları da maliyyələşdirir. Bundan başqa, komitə əsas yardımlarını AIPAC klublarından, AIPAC "Gələcək" kampaniyalarında iştirak edən və Konqres üzvləri ilə aktiv çalışan üzvlərdən alır. ABŞ-da 100.000-dən çox vətəndaş AIPAC personalı ilə əməkdaşlıq edir. Təşkilatın, dünya üzrə 10 ölkədə bölgə ofisi və ABŞ-da 7 şöbəsi fəaliyyət göstərir. AIPAC mütəxəssisləri İsrailə daha çox dəstək olması istiqamətində kilsələrlə də iş aparır. Komitənin illik siyasət konfransları İsrail tərəfdarı olan icmaları səfərbər edən ən geniş tədbirlərdir və geniş kütlələr arasında "İsrailin gələcəyinə təsir edən ən əhəmiyyətli günlərdən üçü" deyə xarakterizə edilməkdədir. Məs. 2012-ci ildə 50 ölkədən 13 mindən çox iştirakçı qatılmış bu Konfransda Prezidentlər, baş nazirlər daxil onlarla səlahiyyətli şəxs çıxış edərək ABŞ-İsrail əlaqələrinin əhəmiyyətindən danışmışdır. AIPAC ABŞ-dan İsrailə maliyyə yardımlarının verilməsi üçün fəal lobbiçilik fəaliyyətləri icra edir və hər il təqribən 3 milyard dollar tədarük edir. Bu da İsrailə "II Dünya Müharibəsindən sonra ABŞ-dan ən çox yardım alan ölkə" adını qazandırmışdır. Hazırda komitənin siyasi gündəliyində duran üç əsas məsələ bunlardır: İranın nüvə silahına malik olmasının qarşısının alınması, ABŞ-İsrail strateji əməkdaşlığının gücləndirilməsi, İsrailə təhlükəsizlik yardımlarının dəstəklənməsi. Komitə mütəxəssisləri Orta Şərq siyasətinə, ABŞ-İsrail əlaqələrinə dair ABŞ qanunvericilik məclisində gündəliyində olan qanun və qanun layihələrini təqib edir, müvafiq sahələrdə siyasəti analiz edərək aktual nəşrlər hazırlayırlar. AIPAC gənclər istiqamətində fəaliyyətlərə də əhəmiyyət verir və hər il onlarla şagird, tələbə və mütəxəssis gənci seminar, konfrans, axşam dərs və s. proqramları, İsrailə gəzinti proqramlarına cəlb edir. Eyni zamanda bu gənclər Konqres üzvləri ilə görüşmək və müxtəlif staj proqramlarında iştirak etmək imkanı əldə edirlər. Komitənin illik büdcəsi təqribən 67 milyon dollardır.

İsrailin ölkə maraqlarının inkişaf etdirilməsi istiqamətində fəaliyyət göstərən digər bir təşkilat isə 1990-ci ildə qurulmuş olan Amerika-İsrail Təhsil Fondudur (AIEF). Fond, Amerika-İsrail İctimai İşlər Komitəsinə (AIPAC) dəstək verən fəaliyyət göstərən qeyri-kommersiya xarakterli təhsil təşkilatıdır. Fond ABŞ qanunvericilərinin İsrailə tanışlıq gəzintilərinin (hər 2 ildə bir) və digər AIPAC təhsil fəaliyyətlərinin sponsorluğunu həyata keçirir. Məs. Fond 2011-ci ildə 81 Konqres üzvünün (55 Respublikaçı və 26 Demokrat) İsrailə həftəlik səyahətini maliyyələşdirmiş, bu üzvlər İsraildə prezident, baş nazir və Mahmud Abbasla danışıqlar aparmışdır. Bununla yanaşı, fond müntəzəm olaraq ABŞ Kongresinin personalı üçün də seminarlar təşkil edir. Fondun büdcəsi təqribən 26 milyon dollardır.





## İTALİYA: İTALYAN DİASPORU VƏ MİQRASİYA SİYASƏTİ

"İtalyan diasporu" - İtaliyanın birləşdirilməsi tarixindən (1861) başlayaraq ölkədən köçən İtalyanları əhatə edir. Bu köç əsasən 1960-cı illərdə "İtalyan iqtisadi möcüzəsi" dövründə bitmişdir. Bu dövrdə ölkəni milyonlarca insan tərk etmişdir. 2011-ci ilin statistikalarında isə İtaliya xaricində yaşayan İtalyanların sayının 4.115.235 olduğu bildirilir. 1945-1970-ci illər arasındakı dövrdə İtalyanlar "qonaq işçi" olaraq Avstriya, Belçika, Fransa, Qərbi Almaniya, İsveçrə və Lüksemburq kimi ölkələrə köçmüşdür. Xaricdə ən çox saylı İtalyan mənşəli qrup Braziliya italyanlarıdır. Ümumiyyətlə isə, ölkə xaricində dünyada 4 milyon İtaliya vətəndaşının yaşadığı məlumdur.

## "İTALYAN OLMAQ"

"İtalyan" olaraq, müxtəlif dövrlərdə ölkədən xaricə müxtəlif səbəblərlə köçən insanlar və onların nəsilləri nəzərdə tutulur.

## XARİCDƏ YAŞAYAN İTALYANLAR VƏ MİQRASİYA SİYASƏTİ

İtaliyada xaricdə yaşayan italyanlarla iş aparan ən əhəmiyyətli qurum Xarici İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən Xaricdə Yaşayan İtalyanlar və Miqrasiya Siyasəti İdarəsidir. İdarənin büdcəsi təqribən 42 milyon avrodur. İdarə 7 şöbədən ibarətdir. Bu şöbələrin vəzifələri aşağıdakılardır:

I Şöbənin vəzifəsi - xaricdəki italyanlarla əlaqədar siyasətin işlənib hazırlanmasıdır. Bu məqsədlə şöbə:

Xaricdə yaşayan italyanlar üçün koordinasiyanı və siyasətin prinsiplərini müəyyən edir;

Müvafiq sahədə qanunvericilik təklifləri verir;

Xaricdə Yaşayan İtalyanlar Şurası (CGIE), Xaricdə yaşayan İtalyanların Komitələri

(COMITES) və digər təşkilatlarla əlaqələri inkişaf etdirir, xaricdəki möhtac italyanlara dəstək olur;

Xaricdə yaşayan italyan təşkilatları ilə iş aparır;

Bütün dünyadakı italyan mənşəli parlament üzvləri ilə əlaqələri inkişaf etdirir.

II şöbənin vəzifəsi - xaricdəki İtaliya vətəndaşları üçün mədəniyyət tanıtım və dil fəaliyyətlərinin tənzimlənməsidir. Bu məqsədlə şöbə:

Xaricdəki İtalyanlar üçün təhsil və akademik imkanlar təqdim edir, İtalyan dili və mədəniyyətinin yayılması üçün çalışır;

İnformasiya, mədəni və istirahət fəaliyyətlərini tənzimləyir;

Xaricdə RAI ITALIA (beynəlxalq İtaliya televiziyası) proqramlarının yayımına nəzarət edir;

Avropa xaricindəki ölkələrdə peşə təhsili və digər fəaliyyətləri həyata keçirir.

III şöbənin vəzifəsi - xaricdəki vətəndaşlar üçün konsulluq, səyahət və s. xidmətlərin həyata keçirilməsidir. IV şöbənin vəzifəsi - xaricdəki İtalyanların qorunması və dəstəklənməsi, milli azlıqlar barədə beynəlxalq hüquqi müstəvidə əməkdaşlığın reallaşdırılmasıdır. Bu məqsədlə şöbə:

Xaricdəki italyanların qorunması və dəstəklənməsi istiqamətində konsulluq fəaliyyətlərinin koordinasiyasını təmin edir;

Məhbuslar, köçlər və vətənə geri dönüş məsələləri ilə bağlı iş aparır;

Beynəlxalq sahədə milli azlıq məsələri ilə bağlı iş aparır;

Kompensasiya və borcun (kredit) geri qaytarılması sahələrində iş aparır;

Beynəlxalq hüquqi əməkdaşlıq sahələrində işləyir;





İnzibati əməliyyatlar, notarius xidmətlərinin əlaqələndirilməsi, qanunilәşdirmə və s. sahələrdə fəaliyyət göstərir.

V şöbənin vəzifəsi - xaricdəki italyanların qeydiyyatı, konsulluq xidmətləri və səs vermə məsələlərinin təmin edilməsidir. VI şöbənin vəzifəsi - italyanlar üçün vizalar və Şengen sahəsi ilə müvafiq işlərin həyata keçirilməsidir. VII şöbənin vəzifəsi - miqrasiya, qaçqınlar və beynəlxalq övladlığa götürmə sahələrində iki tərəfli və çoxtərəfli əməkdaşlıqların icra edilməsidir.

1989-ci ildə qurulmuş digər bir təşkilat da - Xaricdəki İtalyanların Ümumi Şurasıdır (CGIE). Şura xaricdəki italyanlar mövzusunda İtaliya parlamenti və hökuməti ilə məsləhətləşmələri reallaşdıran əsas təşkilatdır. Təşkilat ölkə xaricində yaşayan italyanların ölkənin siyasi həyatında aktiv iştirakını təmin edən və İtaliya ilə daimi bir əlaqəni meydana gətirən əhəmiyyətli bir yerə malikdir. 94 üzvü olan Şuranın, 65 üzvü hər 5 ildə yerli seçki iclaslarında birbaşa seçilir. 29 üzv isə İtaliya Milli Miqrasiya Assosiasiyası, parlamentdəki partiyalar, həmkarlar ittifaqı təşkilatları və əhəmiyyətli xeyriyyə təşkilatlarının tövsiyələri ilə İtaliya Baş naziri tərəfindən təyin olunur.

Şura iclaslarını Ümumi Məclisin, Qitə Komitələri və müxtəlif mövzular üzrə komitələri təşkil edərək həyata keçirir. Şura sədri eyni zamanda İtaliya Xarici İşlər Naziridir. Bununla yanaşı, Şuranın baş katibi, üç bölgədən məsul olan dörd ümumi katib köməkçisi (Avropa və Şimali Afrika, Latın Amerikası, Avropa xaricindəki ingilis dilli ölkələr) hökumət tərəfindən təyin olunur. İldə iki dəfə təşkil edilən Ümumi Məclisin iclaslarında, xaricdəki italyan icmasının problemləri və onların həlli yolları müzakirə olunur, təkliflər və tövsiyələr hazırlanır. Bundan başqa CGIE, hökumətin aşağıdakı mövzularda siyasətinin hazırlanmasında tətbiq olunması zəruri olan görüşləri təqdim edir: xaricdəki italyan icmasına maliyyə dəstəyi, təhsil siyasəti,

peşə təhsili və ictimai rifahın təmin edilməsi üçün maliyyə vəsaitinin ayrılması, milli assosiasiyalar, xeyriyyə təşkilatları, peşə təhsili müəssisələri, media və xəbər təşkilatlarına maliyyə dəstəyi üçün şərtlərin müəyyən edilməsi, xaricdəki italyanlar üçün radio və televiziya proqramları, konsulluq, təhsil və sosial xidmətlərin yaxşılaşdırılması üçün qaydaların müəyyənləşdirilməsi.

Bu təşkilatlarla yanaşı, xaricdə müvəqqəti yaşayan italyan icmasını təmsil edən Xaricdə Yaşayan İtalyanların Komitələri (Com. It. Es.) də fəaliyyət göstərib, konsulluqlar nəzdində 3000 İtalyan sakinindən ibarət icmanın yaşadığı yerlərdə iş aparır. Hər komitənin (100.000-dən çox italyandan ibarət olan icmalarda isə 18) seçki ilə müəyyən olunan 12 üzvü mövcuddur. Komitələr ümumiyyətlə icmaların sosial və mədəni inkişaf sahələrindəki ehtiyaclarının müəyyənləşdirilməsi istiqamətində fəaliyyət göstərir. Komitələr fəaliyyət göstərdikləri yerlərdə yaşayan İtalyan vətəndaşlarını diplomatik-konsulluq sahəsindəki səlahiyyətli şəxslərlə əlaqələrində təmsil edən və aralarında mütəmadi məlumatın ötürülməsini təmin edən müəssisələrdir. Bununla yanaşı, bu təşkilatların təmsil etdikləri icmanın sosial və mədəni sahələrdəki ehtiyaclarını müəyyən edərək, gənclər, sosial və təhsil dəstəyi, peşə təhsili, turizm, idman və digər sahələrdə fəaliyyətləri də mövcuddur.

Digər tərəfdən, komitələrin bir digər vəzifəsi də olduqları ölkədəki italyan vətəndaşlarının hüquq və mənafelərinin qorunması istiqamətində konsulluq işçiləri ilə əməkdaşlıq etməkdir. Dünya üzrə 38 ölkədə 126 belə komitənin (Avropada 69, Latın Amerikasında 23, Mərkəzi Amerikada 4, Şimali Amerikada 16, Asiyada 7, Afrikada 7) fəaliyyət göstərdiyi bildirilir.





## İTALYANCA VƏ DANTE ALIGHIERI CƏMİYYƏTİ

Bütün dünyada italyan dilinin yayılması İtaliya Xarici İşlər Nazirliyinin fəaliyyətinin əhəmiyyətli bir istiqamətini təşkil edir. Bu məqsədlə, Xarici İşlər Nazirliyi nəzdində çalışan Mədəni Təqdimat və Əməkdaşlıq İdarəsi bir çox təşkilat və institutun vasitəsilə italyan dilinin daha geniş sahədə istifadə edilməsinin təmin edilməsi istiqamətində fəaliyyət göstərir. İtaliya Mədəniyyət İnstitutları (90) xaricdəki italyanlar və italyan mənşəlilər üçün dil və mədəniyyət kursları təşkil edir. Bu *institutlar müxtəlif sahələrdə (incəsənət, musiqi, kino,* teatr, rəqs, moda, dizayn və rəsim) tədbirlər təşkil edir. Bununla yanaşı, 19-cu əsrdən bəri dünyada mövcud olan italyan məktəbləri şəbəkəsi hal-hazırda 162 məktəb daxil 46 ölkədə 283-dən çox təşkilatla fəaliyyət göstərir. Bu məktəblərin böyük bir qismi Avropada (164), digər bir qismi Amerika (72), Aralıq dənizi və Orta Şərq (28), Səhra altı Afrika (17) və Sakit Okean regionunda (2) yerləşir.

Bu sahədə Dante Alighieri Cəmiyyəti tərəfindən dünyada 413 filial və 200 mindən çox tələbə ilə əhəmiyyətli uğurlar əldə edilmişdir. 1889-ci ildə təsis edilən cəmiyyətin əsas məqsədi xaricdə italyan dili və mədəniyyətinin yayılması və italyan əsilli şəxslərin vətənlə əlaqələrinin inkişaf etdirilməsidir. Bununla yanaşı, cəmiyyət tələbələrin italyan dilini bilmə səviyyəsini ölçən sertifikatlaşdırılmış imtahanlar (PLIDA) da təşkil edir. İtaliya Xarici İşlər Nazirliyi də cəmiyyətin fəaliyyəti üçün illik vəsaiti təmin edir. Bundan başqa, bütün dünyada 700-dən çox italyan dilində fəaliyyət göstərən kütləvi informasiya təşkilatları da mövcuddur.

## "PATRONATİ"

"Patronati" (İtalyanca "xeyriyyəçilik, himayəçilik" mənasında) müxtəlif ölkələrdə yaşayan italyanlara bir sıra sosial rifah xidmətləri təqdim edən və yerli səviyyədə təşkilatlanan xeyriyyə xarakterli təşkilatlardır. İtalyanların yaşadığı demək olar ki hər ölkədə fəaliyyət göstərən bu təşkilatlar, həm İtaliya, həm də soydaşların yaşadığı ölkələrin qanunvericiliyindəki təqaüd və varislik, əlillik, əmlak vergisi və ictimai həyatın digər bənzər sahələrindəki mövzularla əlaqədar problemlərdə soydaşlara kömək edir. Bununla yanaşı, müxtəlif adlarla fəaliyyət göstərən bu təşkilatlar ailə, uşaq, gənclik, yaşlılar, yoxsullar, ruhi və fiziki baxımdan sağlam həyat və digər mövzularla əlaqədar layihə və tədbirlər həyata keçirir.





## QAZAXISTAN: QAZAX DİASPORU VƏ DÖVLƏT SİYASƏTİ

Qazax diasporunu ümumi olaraq xarakterizə etdiyimizdə, bu əhalinin İslam dininə və türk dilli xalqlara mənsub olduğunu, əsasən Asiya, Qərbi Avropa və Amerikada məskunlaşdığını söyləyə bilərik. Qərbi Avropa və Amerikada qazax diasporunun sayı təqribən 800 min olub, burada sıx bir şəkildə yaşamamaqdadırlar. Həmçinin, qazaxlar Asiya ölkələrində də (Türkiyə, İran, Əfqanıstan) də məskunlaşmışdır.

## QAZAXISTAN SOYDAŞI OLMAQ

Qazaxıstan diasporu ya da soydaşı anlayışı kifayət qədər məhdud olub, əsasən Qazaxıstandan bəzi (tarixi, siyasi, iqtisadi) səbəblərdən ötəri köçənləri, xüsusilə də Sovetlərdən sonra MDB ölkələrində qalan müsəlman qazax əhalini əhatə edir. Statistikaya görə, Qazaxıstan xaricində 43 ölkədə 5 milyondan çox qazax yaşayır. Bütün dünyada isə qazaxların sayı təqribən 15 milyondur. Bunun 80%-i Özbəkistanda (2 milyon), Çində (2 milyon) və Rusiyada (1 milyon) məskunlaşmışdır. Bundan başqa qazax icması Monqolustan (83 min), Türkmənistan (74 min), Türkiyə (12 min), Qırğızıstan (10 min) və İranda da (5 min) məskunlaşmışdır. Avropada isə ən çox qazax ailəsi Fransa (180 ailə) və Almaniyada (160 ailə) yaşayır. Mütəxəssislər qazax diasporunun 3 əsas məskəni kimi - Qazaxıstan, Türkiyə və Çini göstərirlər.

## QAZAXISTAN DÖVLƏTİ VƏ DİASPORU

Xaricdəki qazaxların tarixi vətənlərinə geri dönməsinin təmin edilməsi, dövlətin bu sahədəki əsas siyasətlərindən biridir. 1992-ci ildə Qazaxıstan prezidenti Nursultan Nazarbayev xaricdə yaşayan bütün qazaxları vətənlərinə geri qayıtmağa dəvət etmişdir. 1991-ci ildə Monqolustandan qazaxların Qazaxıstana qayıtması ilə başlayan prosesdə 2000-ci ilə qədər 64 min qazax ölkəyə qayıtmışdır. 1998-ci ildə Qazaxıstan prezidenti "Etnik Qazaxların Tarixi Vətənlərinə Geri Dönmesi Haqqında" Dövlət Proqramını imzalamışdır. Bu müddətdə ölkənin xarici nümayəndəlikləri vasitəsilə geri qayıtmaq istəyən qazaxların vəziyyəti haqqında məlumatlar mərkəzə göndərilmişdir. Xüsusilə İran və Əfqanıstan, Çin, Türkiyə və Monqolustandan geri dönüşü də əhatə edən prosesdə 2010-ci ilə qədər təqribən 1 milyon qazax soydaşın ölkəyə qayıtdığı bildirilir.

2008-ci ildə "Nurlı Köş" adı altında vətənə daha bir köç siyasəti başlamışdır. Qazaxıstan üçün bu geri köç yalnızca bir diaspor ya da soydaş məsələsi olmayıb, qazaxların kritik bir şəkildə milli azlığa çevrilmə təhlükəsi yaşayan ölkədəki demoqrafik vəziyyəti dəyişdirmək baxımından da stratejik əhəmiyyət kəsb edir.

1993-ci ildə Münixdə "Avropa Qazax Türklərinin Bülteni" adlı jurnal çıxarılmağa başlanmışdır. Yalnız iki nömrəsi nəşr edilən və ilk nömrəsi Türkiyə türkcəsində çıxan nəşr ikinci nömrədən sonra qazaxca çıxarılmağa başlanmışdır. Hazırda 10 Avropa şəhərində qazax mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Bununla yanaşı, Rusiyanın bir çox şəhərində və muxtar respublikalarında (Altay, Saka, Tatarıstan, Başqırdıstan, Kalmık), Qazax Milli-Mədəniyyət Mərkəzləri mövcuddur. Bundan başqa, İstanbulda Qazax Cəmiyyəti, İngiltərədə London Qazax Cəmiyyəti, Almaniyada Köln Qazax Mədəniyyət Mərkəzi fəaliyyət göstərir. Bu cür mədəniyyət mərkəzləri Avstriya, İsveç, Macarıstan və Ukraynada da mövcuddur.





Bununla yanaşı, ilk dəfə 1992-ci ildə Almatıda, Dünya Qazaxlar Qurultayı reallaşdırılmışdır. Daha sonra qurultaylar 2002-ci ildə Türküstanda, 2005-ci və 2011-ci illərdə isə Astanada keçirilmişdir. 1995-ci ildən etibarən Qazaxıstan dövlətinin diaspor sahəsindəki mövqeyi fəallaşmağa başlamışdır. Belə ki, "Qazax Diasporuna Dəstək üzrə Dövlət Proqramı", "Miqrasiya Qanunu" və digər əlaqədar qanunvericilik aktları işlənib hazırlanmışdır. Ölkəyə geri qayıdan qazaxlar üçün dövlət kvotaları yaradılmışdır. Bu proses Qazaxıstan hökuməti nəzdindəki Miqrasiya və Demoqrafiya Agentliyi və Dünya Qazaxlar Assosiasiyasının əməkdaşlığıyla həyata keçirilmişdir. 2005-2007-ci illəri əhatə edən "Xaricdə Yaşayan Soydaşlara Dəstək üzrə Dövlət Proqramı" qazax soydaşlarının sosial-iqtisadi və hüquqi baxımdan qorunması məqsədilə yanaşı, aşağıdakı vəzifələrin yerinə yetirilməsini də qarşısına məqsəd qoymuşdur:

- Xaricdəki soydaşlara dəstək verilməsi məqsədi ilə qanunvericiliyin inkişaf etdirilməsi;
- Soydaşlarla iqtisadi əlaqələrin inkişaf etdirilməsi,
- Soydaşlarla müntəzəm mədəni-humanitar əlaqələrin inkişaf etdirilməsi;
- Soydaşların məlumatla təminatı;
- Xaricdə yaşayan soydaşların Qazaxıstan universitetlərində təhsil almasının təmin olunması.

Bu müddətdə Qazaxıstan MDB ölkələri çərçivəsində vətəndaşlığın alınması üçün şərtlərin asanlaşdırılması istiqamətində hazırlanan layihələrdə də iştirak etmişdir. Bununla yanaşı:

- Xaricdəki qazax soydaşları arasındakı iş adamlarının Qazaxıstan iqtisadiyyatına investisiya qoymasının təmin edilməsi üçün lazım olan normativ-hüquqi bazanın yaradılması;
- Sosial tədqiqatların keçirilməsi və hər il "Qazax Soydaşlarının Vəziyyəti və Onlara Dəstək Tədbirləri haqqında Hesabat"ın hazırlanması;

Qazax Mədəniyyət Mərkəzlərinin fəallaşdırılması və burada soydaşların iştirakı;

Avropadakı qazaxlar üçün idman, incəsənət festival və müsabiqələrinin təşkil edilməsi;

Qazax mədəniyyəti və ədəbiyyatı günlərinin təşkil edilməsi;

Qazax "Caspionet" TV kanalının (kanalın eyni zamanda rus və ingilis dilində də Avropa, Mərkəzi Asiya, Orta Şərq və Şimali Afrikada yayımı mövcuddur) translyasiyası və internet saytın istifadəyə verilməsi;

Soydaşlarla qurultay, seminar, dəyirmi masa və s. görüşlərin təşkili istiqamətində işlərin aparılması da nəzərdə tutulur.

Ölkədə xaricdəki soydaşlarla bağlı siyasəti koordinasiya edən əsas təşkilat Milli Siyasət üzrə Hökumət Komitəsi olsa da, onun fəaliyyəti kifayət qədər fəal deyil və bu baxımdan da bəzi dövlət dairələrində tənqid olunur. Sözü gedən dövlət proqramını tədqiq edərkən diqqət çəkən bir məqam da, proqramda Rusiya Federasiyasının soydaşlarla bağlı siyasətindən bəhs edilərək ondan nümunə göstərilməsidir. Bununla yanaşı soydaşlar sahəsindəki siyasətində MDB ölkələrindəki qazax diasporu prioritet təşkil edir və xüsusilə bu bölgələrə qazax nəşr orqanlarının nüfuz etməsinə xüsusi əhəmiyyət verilir.

2002-ci ildə dövlət universitetlərində ümumi şagird qəbulunun 2%-i soydaş gənclərin təhsil alması üçün kvota ayrılmışdır. Bununla yanaşı təhsilə ayrılan vəsait də artırılmışdır. Bundan başqa, hər il təqaüdlü olaraq təhsil almaq üçün qazax diasporunun gənclərinə universitetlərin hazırlıq bölmələrində yerlər ayrılır. Təhsil sahəsində soydaşlara dəstək üçün digər tərəfdən də istedadlı soydaş uşaqlarının seçilərək xüsusi lisey, kollec və s. təhsil almalarının təmin edilməsi, qazax diasporuna və qazax məktəblərinə təhsil metodologiyaları və ədəbiyyat,





təcrübə mübadiləsi məsələlərində dəstək olunması istiqamətində də fəaliyyət həyata keçirilir.

Dövlət siyasətində, ölkəyə qayıtmaq istəyən soydaşların Qazaxıstan vətəndaşlığını alması da nəzərdə tutulmuşdur və hər il ölkəyə qayıtmaq üçün müəyyən miqdar kvota (hər il üçün 5000-10.000 ailə kvotası) ayrılmışdır, həmçinin ölkəyə qayıdanların vətəndaşlıq alma proseduru da asanlaşdırılmışdır. Qazaxıstan dövlətinin qazax diasporuyla milli-mədəni əlaqələrinin inkişaf etdirilməsində Mədəniyyət və İdman Nazirliyinin nəzdində 2009-2011-ci illəri əhatə edən Stratejik Plan çərçivəsində həyata keçirilən fəaliyyətlər də əhəmiyyət kəsb edir.

Bununla yanaşı, 1992-ci ildə beynəlxalq səviyyədə I. Dünya Qazaxları Qurultayında prezident və 33 ölkədən qazax diaspor nümayəndələrinin iştirakı ilə Dünya Qazaxları Assosiasiyası təsis edilmişdir. Assosiasiyanın 19 ölkədə nümayəndəliyi mövcuddur. Əsas məqsədi xaricdəki soydaşlara mədəniyyət, mənəviyyat, təhsil və biznes mövzularında dəstək vermək, həmçinin, soydaş və diaspor məsələlərinində qarşıya çıxan problemləri Qazaxıstan dövlət orqanlarına çatdırmaqdır. Assosiasiyanın nəzdində "Atajurt" nəşr mərkəzi, kitabxana və "İncəsənət" Mərkəzi də fəaliyyət göstərib, rəhbəri isə Nursultan Nazarbayevdir. Təşkilatın rəsmi internet saytı, tamamilə qazaxca fəaliyyət göstərir və burada çox az sayda rusca mətn-məqaləyə rast gəlmək mümkündür.

Assosiasiyanın[14] fəaliyyəti çərçivəsində Türkiyə, Çin, Monqolustan, Özbəkistan, İran, Rusiya və Belçikadan alim,

---

[14] Assosiasiyanın fəaliyyəti çərçivəsində, 2022-ci ilə qədər Avropa qazax diasporunun kiçik miqyaslı qurultaylarının həyata keçirilməsi planlaşdırılmışdır: Məsələn, Köln - 2016, Münxen - 2017, Oslo - 2018, London - 2019, Vyana - 2020, Stokxolm - 2021, Aarhus - 2022. Həmçinin, 2009-ci ildə assosiasiyanın fəaliyyətləri çərçivəsində Almaniyada "Qazaxca Bilirsənmi?" adlı dil müsabiqəsi də keçirilmişdir.

yazıçı, şair və dövlət xadiminin 60 kitabı, həmçinin əcnəbi alimlərin qazax tarix və mədəniyyəti haqqındakı məqalələri dərc edilmişdir. Bundan başqa, diasporun təşəbbüsü ilə prezidentin hər il xalqa etdiyi müraciətlərin mətnləri türk, ərəb və monqol dillərində dərc olunur. Bununla yanaşı, "Tuğan Til (Ana dili)" almanaxı və beynəlxalq ictimai, siyasi, ədəbiyyat-sənət mövzularında "Altın Beşik" jurnalı nəşr olunur. Bu təşkilat Qazaxıstan dövləti hesabına diaspor gənclərinin təqaüd alaraq orta və ali məktəblərdə təhsil almasını da qarşısına məqsəd qoymuşdur. Bunun üçün sərhəd bölgələrdə xüsusi ixtisaslı kolleclərin açılması, stajların təşkil edilməsi, istedadlı gənclərin "Bolaşak" proqramında iştirakı, qazax dilinin öyrədilməsinin təmin edilməsi, ölkə və xarici ölkə universitetlərində doktorantura təhsilini almaları üçün imkanın təmin edilməsi istiqamətində də fəaliyyət göstərir. Bununla yanaşı, sözü gedən dövlət proqramında Avropadakı qazax diasporu gənclərinin Türkiyədə təhsil alma meylinin Qazaxıstana tərəf çevrilməsi məqsədi də müşahidə edilir.

Qazaxıstanın dövlət səviyyəsindəki soydaş siyasətinin prioritetlərindən biri də xaricdəki soydaşlar haqqında tədqiqatların həyata keçirilməsidir. Bu vəzifə iki - Mədəniyyət və Bilik, Təhsil və Elm Nazirliklərinə verilmişdir. Dövlət sifarişi əsasında indiyə qədər yeganə etnoqrafik-etnoarxeolojik sahə tədqiqatı Monqolustanda reallaşdırılmışdır. Bu baxımdan alimlərin qarşısında – etnik və mədəni tədqiqatlarının həyata keçirilməsi, müştərək və fərqli xüsusiyyətlərin öyrənilməsi, filmlərin hazırlanması, monoqrafiyaların yazılması vəzifələri qoyulmuşdur. Dövlət bu tədqiqatları maliyyələşdirərək mədəniyyətin təbliğatı üçün nəşr orqanlarının açılmasına da dəstək verir.





## FRANSA: İCTİMAİ DİPLOMATİYA VƏ FRANCOPHONIE

"Francophonie" (Frankofoniya, Fransız dili) adı altında həyata keçirilən siyasət, Fransa və keçmiş müstəmləkə ölkələrindəki, həmçinin fransızların kütləvi formada yaşadığı bölgələrdəki icmalar arasında həmrəyliyi təmin etməyi qarşıya məqsəd qoymuşdur. "Francophonie" sözünü coğrafiyaçı Onesime Recluse tərəfindən 1880-ci ildə fransız dilində danışan ölkə və icmalara istinad edilməsi üçün istifadə edilmişdir. Fransanın xaricində 2 milyondan çox fransız vətəndaşı yaşayır. Lakin fransız diasporu və soydaşlığı milyonlarla icmanı əhatə edir. fransız soydaş siyasəti özünə məxsus olub, burada diqqət çəkən məqam soydaşlık anlayışının müştərək istifadə edilən dillə əlaqələndirilməsidir. Çünki ölkənin Xarici İşlər Nazirliyi və digər diaspor təşkilatlarının rəsmi internet saytında "Dünyada Fransız dili", "Fransız dilli olmaq", "Frankofonluk", "Fransız dilini öyrənmək" və dil faktorunu vurğulayan bir çox oxşar istinada rast gəlinə bilər. Bundan başqa, Fransa xüsusilə səfirlik, konsulluq, mədəniyyət müşavirliyi və mərkəzləri vasitəsilə öz dilinin öyrədilməsini və öyrənilməsini bütün dünyada ən mütəşəşkkil bir formada reallaşdıran ölkələrdən biridir. "Fransız soydaşlığının və kimliyinin" fransız dilini bilmə və istifadə etmə meyarı ilə qiymətləndirildiyini nəzərə alsaq, dövlətin bu dilin istifadəçilərinin sayını bütün dünyada artırmaq istəyinin hansı məqsədlər güddüyünü başa düşmək çətin deyil. Dünyada 200 milyondan çox fransızca danışan əhali mövcuddur. Fransa bunların 30 milyonunu öz diasporu kimi görür. Fransa Konstitusiyasının 87-ci maddəsində belə deyilir: "Fransa, fransız dilini paylaşan ölkədir və icmalarla həmrəylik və əməkdaşlığın inkişaf etdirilməsinə xüsusi əhəmiyyət verir." Fransa prezidenti administrasiyası Frankofonya siyasətinin reallaşdırılmasını təmin edən ən əsas təşkilatdır. Bununla yanaşı, Prezidentin Frankofonya

üzrə Xüsusi nümayəndəsi də mövcuddur ki, o bu sahədəki əsas təşkilatların fəaliyyətinə nəzarət edir. Bundan başqa, Baş nazirliyə tabe Fransız Dili Ali Şurası fəaliyyət göstərir və xaricdə fransız dilinin yayılmasını təmin edir. Avropa və Xarici İşlər Nazirliyində Frankofonya işlərini tənzim edən ayrı bir departament də fəaliyyət göstərir. Avropa və Xarici İşlər Nazirliyi və Mədəniyyət və Rabitə nazirliklərinin nəzdində olan Fransa İnstitutu xaricdəki fransız təşkilatların sayının artırılması və fəaliyyətini təmin edir. Dünyadakı fransız assosiasiya və klublarını birləşdirən Frankofonya Dostluq Assosiasiyası (AFAL) da fəaliyyət göstərir. Bundan başqa, Fransız müəllimlərini də birləşdirən beynəlxalq Fransız Müəllimləri Federasiyası da fəal bir şəkildə fəaliyyət göstərir.

## "FRANSIZ OLMAQ"

Burada "Fransız olmaq" ya da "Frankofonya ölkəsi" anlayışı:

- Fransız dilinin ana dili və ya ənənəvi dil olduğu ölkələri;
- Əhalisinin əksəriyyəti fransız olan ölkələri;
- Fransız dili ya da mədəniyyəti ilə əhəmiyyətli əlaqələri olan icma və ya ölkələri əhatə edir.

## FRANCOPHONIE

Frankofonya ("Francophonie") siyasətini icra edən əsas təşkilat - Beynəlxalq Frankofoniya Təşkilatıdır (Organisation Internationale de la Francophonie - OIF) və əsas şüarı "bərabərlik, bütünlük, həmrəylik"dir. 1970-ci ildə 21 ölkənin təmsil olunduğu Afrikalı dövlət başçılarının iştirakı ilə Mədəni və Texniki Əməkdaşlıq Agentliyi təsis edilmişdir. Əsas məqsədi fransız dili və mədəniyyətinin inkişaf etdirilməsi və təbliğ edilməsi olan bu Agentlik sonradan - 1998-ci ildə Dövlətlərarası Frankofoniya Agentliyinə çevrilmişdir. 2005-ci ildə Frankofoniya Nizamnaməsinin qəbul edilməsi ilə bu ad - Beynəlxalq





Frankofoniya Təşkilatı deyə dəyişdirilmişdir. Əvvəllər yalnızca şimaldaki fransız dilli ölkələrin kiçik klubu olaraq təsis edilən təşkilat, sonradan onlarla fəaliyyət sahəsi olan və hal-hazırda fransız dili və mədəniyyətini hər hansı səviyyədə mənimsəyən ölkə və icmalarla mədəniyyət, elm, iqtisadiyyat, ədliyyə və sülh sahələrində əməkdaşlığı həyata keçirən bir təşkilata çevrilmişdir. Bu təşkilatın 63 tam, 3 tərəfdar, 19 müşahidəçi üzvü mövcuddur. Bu dövlətlərdə fransız dili əhalinin əksəriyyətinin istifadə etdiyi dil deyil, belə ki üzvlük üçün əsas meyar kimi ölkədə tarixən fransız mədəniyyətinin davam etdirilməsinin kifayət olduğu hesab edilir.

Frankofoniya Nizamnaməsi 2005-ci ildə Antananarivodaki Zirvə konfransında qəbul edilmişdir. 2004-ci ildə isə 2004-2014 illəri əhatə edən Strategiya Sənədi qəbul edilmişdir və teşkilatın qarşısında 4 əsas missiya müəyyənləşdirilmişdir:

- Fransız dili və mədəniyyətinin dəstəklənməsi;
- Sülh, demokratiya və insan hüquqlarının qorunması;
- Təhsil və kursların, yüksək təhsil və elmi tədqiqatların dəstəklənməsi;
- Stabil inkişaf üçün əməkdaşlığın inkişaf etdirilməsi.

Təşkilatın 1997-2002 illər ərzindəki Baş Katibi B. Butros Qali (Misir) olmuşdur. 2003-cü ildən etibarən isə bu vəzifə Abdou Diouf (Seneqalın keçmiş prezidenti) tərəfindən icra olunur. O 2010-ci ildə təşkilatın Buxarestdə keçirilən zirvə görüşündə üçüncü dəfə baş katiblik vəzifəsinə seçilmişdir. Təşkilatın 3 əsas orqanı mövcuddur: Zirvə görüşləri (2 ildə bir bütün üzv ölkə başçıları ilə), Nazirlər konfransı və Daimi Şura. Zirvə görüşləri 1986-ci ildən bəri Fransa, Kanada, Seneqal, Mavritaniya, Benin, Vyetnam, Livan, Burkino-Faso, Rumıniya, İsveçrə, Konqoda keçirilmişdir. Zirvə görüşləri çərçivəsində üzv ölkələr fransız dilinin inkişafı və yayılması üçün "Dil Paktları" da

imzalamışlar. Nazirlər konfransları, üzv dövlətlərin xarici işlər və ya frankofoniya işləri nazirlərini bir araya gətirir. Daimi Şura isə Beynəlxalq Frankofoniya Təşkilatının baş katibinin rəhbərliyi ilə üzv ölkələrin nümayəndələrinin iştirakı ilə keçirilir. Frankofoniya Agentliyi Baş katibin rəhbərliyində bir icra ofisidir. Baş ofisi Parisdə olan agentliyin Qabon, Toqo və Vetnamda da regional ofisləri fəaliyyət göstərir.

Beynəlxalq Frankofoniya Təşkilatı Zirvə görüşlərində alınan qərarlar çərçivəsində fransız dilli əhalinin yaşadığı ölkələrdə insan hüquqları, beynəlxalq siyasət, dünya iqtisadiyyatı, təhsil, mədəniyyət və demokratiya sahələrində fəaliyyət göstərir və üzv ölkələri tərəfindən maliyyələşdirilir. Təşkilat eyni zamanda, özəl və dövlət təşkilatlarından, həmçinin partnyorlarından da maliyyə dəstəyi alır. Beynəlxalq Frankofoniya Təşkilatının fəaliyyətində diqqət çəkən məqamlardan biri insan hüquq və azadlıqları, demokratiya və digər siyasi mövzularda da özünü "səlahiyyətli və vəzifəli orqan olaraq görməsi", xüsusilə üzv ölkələrdə inkişaf və iqtisadi rifahın inkişaf etdirilməsi məsələlərini təqib edərək buradakı təbii resursların "rasional istifadə edilməsi üçün səy göstərməsidir". 2010-ci ildə təşkilatın büdcəsi 250 milyon avro olmuşdur.

Beynəlxalq Frankofoniya Təşkilatı öz fəaliyyətini beş əsas təşkilat vasitəsilə həyata keçirir, bunlar aşağıdakılardır:

Frankofoniya Universitetlər Assosiasiyası

TV5 Monde (TV5 Dünya)

Beynəlxalq Fransız dilli Yerli İdarəçilərin (bələdiyyə və s.) başçıları Assosiasiyası

Beynəlxalq Təşkilatların Fransız dilli Səlahiyyətliləri Assosiasiyası

İsgəndəriyyə Senghor Universiteti.

Bununla yanaşı, başqa bir təşkilat - 1961-ci ildə təsis edilən Frankofoniya Universitetlər Assosiasiyası Afrika, Ərəb dünyası, Cənub-Şərqi Asiya, Mərkəzi və Şərqi Avropa, Karaib





dəki akademik və tədqiqat institutlarını birləşdirir və fransız dilində elm sahələrinin inkişafı və konsolidasiyasını qarşısına məqsəd qoymuşdur. Bundan başqa, Beynəlxalq Təşkilatların Fransız dilli Səlahiyyətliləri (Vəzifəliləri) Məclisi də mövcud olub 2008-ci ildə təsis edilmişdir və Birləşmiş Millətlər Təşkilatının, Avropa Komissiyası, Afrika Birliyi kimi beynəlxalq təşkilatlarda işləyən və mənşəcə Frankofoniyaya üzv ölkələrindən olan məmur və vəzifəli şəxsləri birləşdirir. Burada əsas məqsəd, beynəlxalq təşkilatlarda fransız dilini dəstəkləmək və bu məqsədlə hər il beynəlxalq təşkilatlar çərçivəsində Fransız Dili Gününün qeyd edilməsini təmin etməkdir. 2012-ci ildə Frankofoniya Universitetlər Assosiasiyasının büdcəsi 40 milyon avro olmuşdur. TV5 (Fransız Dilli Beynəlxalq Televiziya) da, Frankofoniya layihəsinin yayılmasında ən əhəmiyyətli vasitələrdən biri olub, fransız dilində yayımlanır, həmçinin 12 dilə tərcümə edilir. Kanalın büdcəsi təqribən 4 milyon avrodur.

Başqa bir təşkilat - Fransız dilli Yerli İdarəçilərin Beynəlxalq Assosiasiyası 1979-ci ildə, Kvebekdə Jak Şirakın təşəbbüsü ilə təsis edilmişdir və şəhərlərin inkişaf etdirilməsi sahəsində 48 ölkənin səyini birləşdirir. Burada məqsəd, yerli idarəetmə fəaliyyətlərində əməkdaşlığın inkişaf etdirilməsi, yerli demokratiya, yerli xalq və idarəetmənin dəstəklənməsidir. Sağlamlıq, mədəniyyət, gənclik, təhsil, şəhərlərin inkişafı, seminar və kurslar, bələdiyyə infrastrukturları sahələrində fəaliyyət göstərir. 2010-ci ildə assosiasiyanın büdcəsi təqribən 7 milyon avro olmuşdur. Eyni zamanda, təhsil sahəsində Frankofoniya çərçivəsində İsgəndəriyyə Senghor Universiteti də fəaliyyət göstərib (məhz 1989-cu ildə Afrikanın inkişafı üçün fransız dilində fəaliyyət göstərən bu universitetin qurulması gündəliyə gəlmişdir), fransız dilli ölkələrin fərqli pillələrindən olan idarəçilərinə layihələrin idarəolunması, maliyyə məsələləri, ekologiya, qida sağlamlığı və mədəni irs sahələrində magistratura təhsili verir.

Digər tərəfdən, bu sahədə fəaliyyət göstərən bir başqa təşkilat da - Parlamentarilər Məclisi də fransız dilli icmaların maraqlarını təmsil edir və 77 parlament və parlamentlərarası təşkilatı birləşdirir. Baş katibi fransız senator Jak Legendrdir. Bununla yanaşı 1927-ci ildə təsis edilən və xaricdəki fransızların maddi və mənəvi maraqlarını qoruyan Xaricdə Yaşayan Fransızlar Birliği isə 100 ölkədə könüllü əsaslarda fəaliyyət göstərən və üzv olmuş fransızlara ya da fransız dillilərə dəstək təmin edən 170 nümayəndəliyə malikdir. Bu təşkilat bölgələrdəki soydaşların səfirlik, konsulluq və Fransa dövlət orqanları nəzdindəki sözçüsü kimi fəaliyyət göstərir. Assosiasiyanın məclis orqanı xaricdəki fransızların məsləhətçi nümayəndə orqanı olub, Avropa və Xarici İşlər Nazirliyinin rəhbərliyində 179 üzv ilə fəaliyyət göstərir.

## FRANSIZ DİLİ VƏ MƏDƏNİ DİPLOMATİYA

Dünyanın 90 ölkəsində 144 fransız mədəniyyət mərkəzi, 283 fransız assosiasiya və ittifaqı fəaliyyət göstərir. Fransız dilini öyrətmək və öyrənmək məqsədilə dünya üzrə 13 ölkədə 110 milyon dil təhsili alan tələbə və 850.000 müəllim fəaliyyət göstərir. Xaricdəki Fransız Məktəbləri Agentliyi xaricdə 252 fransız məktəbinin fəaliyyətlərini koordinasiya edir. Fransada 250.000 xarici tələbə təhsil alır. Bununla yanaşı, Fransa bütün dünyada təqribən 200 sertifikatlaşdırılmış kurs proqramlarını da təşkil edir. "Campus France (Fransa kampusu)" təşkilatı, Avropa və Xarici İşlər Nazirliyi və Təhsil Nazirliyi nəzdində xaricdə fransız dilində elmi tədqiqat və işlərin dəstəklənməsi, digər universitetlərlə əməkdaşlıq edilməsi istiqamətində fəaliyyət göstərir.

Fransa fransız dilində audiovizual nəşr orqanlarının fəaliyyətini dövlətin prioritetlərindən biri olaraq təyin edib, hazırda bu çərçivədə TV5 və RFI (Beynəlxalq Fransa Radiosu) fəaliyyət göstərir. Bununla yanaşı, fransız dilində film və sənədli





filmlərin yayılması üçün də səy göstərilir. 264 milyon insan fransızca olan bu nəşrləri əldə etmə imkanına malikdir. Dünyanın 135 ölkəsində 440 fransız liseyi fəaliyyət göstərib, bunlar da 250.000 fransız və qeyri-fransız şagirdi əhatə edir. Fransa xüsusilə iqtisadiyyatı inkişaf edən və güclənən ölkələrin (Çin, Hindistan, Braziliya, Meksika) magistr tələbələrinə və akademik tədqiqatçılarına əlverişli imkanlar da yaradır.

"Mən işimdə fransız dilini istifadə edirəm" layihəsi çərçivəsində dünyada fransız dilini iş və digər fəaliyyət sahələrində istifadə edənlərin (iş adamları və s.) konfransları həyata keçirilir. "Niyə fransızca öyrənməliyik?" sualına cavab olaraq Beynəlxalq Frankofoniya Təşkilatının saytında maraqlı şərhlər verilir. Belə ki, burada dünyanın hər bölgəsi üçün fransız dilinin fərqli əhəmiyyət kəsb etdiyi vurğulanaraq, belə izah verilir:

"Şimali Amerikada fransızca bilmək - mədəni bir şəxsiyyət olmaq mənasını daşıyır;

Şimali Afrikada fransızca bilmək - geniş təhsil imkanlarına malik olmaq deməkdir, bu bölgədə fransız dili inkişaf və müasirliyin dilidir;

Mərkəzi və Şərqi Avropada fransız dili - Avropaya inteqrasiya deməkdir,

Üç paytaxt-Brüksel, Lüksemburq və Strasburqda fransızca ingilis dili ilə yanaşı rəsmi dildir, BMT-nin rəsmi dilidir, Olimpik Komitənin iki rəsmi dilindən biridir, poçt xidmətlərinin tək rəsmi dilidir və Afrika Birliyinin tək rəsmi dilidir. "

## GÜRCÜSTAN: GÜRCÜ DİASPORU VƏ SOYDAŞ SİYASƏTİ

Statistik məlumatlara əsasən, xaricdə 1,6 milyon gürcü yaşayır. Mənşəcə gürcü olanlar Rusiya başda olmaqla (800 min), Ukrayna (200 min), Türkiyə və Yunanıstan (hər birində 150 min), İsrail (80 min), ABŞ (70 min), İran (35 min), İspaniya (30 min), Almaniya (25 min), Fransa və Belçika (hər birində 20 min) və İtaliyada (5 min) məskunlaşmışdır.

### GÜRCÜSTAN SOYDAŞI OLMAQ

Gürcüstan Respublikasının soydaşlar sahəsindəki siyasətini təşkil edən əsas hüquqi sənədlərdən biri olan "Xaricdə Yaşayan Soydaşlar və Diaspor Təşkilatları Haqqında" Qanuna görə, soydaş anlayışı çərçivəsində, Gürcüstan vətəndaşı olub, uzun müddət xaricdə yaşayanlar və başqa bir ölkə vətəndaşlığına malik olub, Gürcüstan mənşəli olanlar və ya ana dili gürcü-Qafqaz dillərinə aid olanlar nəzərdə tutulur. Qanuna görə, bu göstərilən şərtlərə cavab verən şəxslər xaricdə yaşayan soydaş statusunu ala bilər. Bu statusu almaq istəyənlər Gürcüstan Vətəndaşlıq Qeydiyyatı Agentliyinə lazım olan sənədlərlə müraciət etməlidir. Buraya müraciət edənlərə xaricdə yaşayan Gürcüstan soydaşı olduğuna dair "soydaş vəsiqəsi" verilir. Bu vəsiqələr 20 yaşdan kiçik olanlara 3 illik, 20-65 yaş arasında olanlara 10 illik, 65 yaşın üzərində olanlara isə müddətsiz verilməkdədir. Etibarlılıq müddəti bitmiş bu vəsiqələr müraciət əsasında yenisi ilə dəyişdirilir. Sözü gedən soydaş statusu və vəsiqəsi bunun üçün lazım olan sənədlər olmadığında və ya yuxarıda göstərilən şərtlərə cavab verilmədiyində ya da şəxs Daxili İşlər Nazirliyinin rəyinə görə, dövlət maraqları əleyhinə davranışlar göstərdiyində verilməyə və ya ləğv edilə bilər.

Gürcüstan soydaşı statusuna malik olan xarici vətəndaş, "Əcnəbilərin Hüquqi Statusu Haqqında" Qanunda göstərilən





hüquqlara malikdir. Bununla yanaşı soydaş statusuna malik olan şəxs:

- İdman yarışlarında Gürcüstanı təmsil edən milli komanda tərkibində iştirak edə bilər;
- Gürcüstana giriş vizası alıb burada 30 gün qala bilər (Gürcüstana getməyə viza tələb edilən ölkələr üçün);
- Gürcüstan vətəndaşlığına müraciət prosesində dövlət rüsumunun ödənilməsində bəzi imtiyazlar əldə edə bilər;
- Gürcüstanda təqaüdlü olaraq məktəb və universitet təhsili ala bilər;
- Gürcüstan dövləti tərəfindən diaspor üçün nəzərdə tutulan maliyyə dəstəyi proqramlarında iştirak etmə imkanlarına sahib ola bilər.

### DİASPOR SİYASƏTİ

Gürcüstan Diaspor Nazirliyi Gürcüstan və xaricdə yaşayan soydaşlar arasında mədəni və elmi əlaqələrin inkişaf etdirilməsini, xaricdə gürcü təhsil müəssisələrinin açılmasını, Gürcüstanın dövlət dilinin öyrədilməsini, mədəni kimliyin qorunmasını, yaşadığı ölkədə ortaq layihələrin həyata keçirilməsini təmin edir. Gürcüstanın "soydaş və ya diaspor təşkilatı" statusunun alınması üçün lazım olan sənədlərlə dövlət orqanına müraciət etmək lazımdır. Bununla yanaşı, 2008-ci ildə təsis edilən Diaspor Nazirliyi diaspor təşkilatlarının, xaricdə yaşayan soydaşların fəaliyyətlərinin ümumi koordinasiyasını və Gürcüstanın Fəxri Soydaş nümayəndələrinin fəaliyyətlərinin koordinasiyasını təmin edir.

Bununla əlaqədar olaraq o vaxtki dövlət başçısı M. Saakaşvili bir çıxışında "Gürcüstan dövləti üçün xüsusilə də gənc soydaşlarıyla əlaqənin kəsilməməsi böyük əhəmiyyət kəsb edir. Bunun üçün ikili vətəndaşlıq mexanizmini istifadə etməliyik. Bu mexanizmin mümkün olmadığı təqdirdə isə soydaş statusunu təsdiq edən vəsiqəni təqdim etmək lazımdır" deyə bildirmişdi.

2013-ci ildə büdcədən Diaspor Nazirliyinə 0,5 milyon dollar ayrılmışdır. Gürcüstan Respublikasının soydaş və ya diaspor siyasətini təşkil edən əsas normativ hüquqi aktlardan biri 2011-ci ildə imzalanan və 2012-ci ilin aprel ayından etibarən qüvvəyə minən "Xaricdə Yaşayan Soydaşlar və Diaspor Təşkilatları Haqqında" qanundur. Bu qanunun məqsədi, Gürcüstanın xaricdə yaşayan soydaşlarla əlaqədar siyasətinin prinsiplərinin müəyyən edilməsi və Gürcüstan dövlət orqanlarının bu siyasəti reallaşdırması üçün əsas prioritetlərin formalaşdırılması, soydaşların və soydaş təşkilatlarının hüquqi statusunun müəyyən edilməsidir. Qanunda Gürcüstan, dövlətin xaricdə yaşayan soydaşlarla əlaqədar siyasətində beynəlxalq hüquq prinsiplərini, eyni zamanda insan hüquq və azadlıqlarını ölkələrin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər olaraq qəbul etməkdədir. Gürcüstan dövləti, xaricdəki soydaşlara ölkə ilə əlaqələrinin qorunması, milli dəyərlərin mühafizə edilməsi və eyni zamanda Gürcüstana geri qayıdan soydaşlara lazımi dəstəyin təmin edilməsini öz öhdəsinə götürmüşdür.

Bununla yanaşı, Gürcüstanın Diaspor üzrə Fəxri Nümayəndələri də mövcuddur ki, bu vəzifəyə 3 illiyinə seçilən şəxslər bundan əvvəl fəaliyyət göstərdiyi dövlət qulluğundan istefa edir. Fəxri nümayəndə hər hansı bir ölkə və ya soydaşların kütləvi şəkildə yaşadığı bir bölgəyə təyin edilə bilər. Bir neçə xarici ölkədəki soydaşlarla koordinasiyanın təmin edimsi üçün bir fəxri nümayəndə də təyin edilə bilər. Fəxri nümayəndə təyin olunmaq üçün namizədin ya Gürcüstan vətəndaşlığı ya da müəyyən şərtlərə cavab verməklə yanaşı yaşadığı ölkənin vətəndaşlığı olmalıdır. Bu şərtlər aşağıdakılardır:

Yaşadığı ölkədə kifayət qədər ictimai mövqeyə və fərdi xüsusiyyətlərə malik olmaq;

Yaşadığı ölkənin dövlət dilini bilmək;

Bu namizədin təyin olunmasının Gürcüstanın milli maraqlarına cavab verməsi,





Yaşadığı ölkədəki diaspor içərisində Gürcüstanın siyasətini dəstəkləyə bilməsi, iqtisadi, elmi, ticari, turizm, mədəni, idman və digər sahələrdə Gürcüstan ilə diaspor arasında əlaqələrin inkişaf etdirilməsi üçün, həmçinin Gürcüstan iqtisadiyyatına sərmayə cəlb etmək üçün fəaliyyət göstərə bilməsi;

Gürcüstanın xaricdə yaşayan Gürcüstan soydaşı statusuna malik olması.

Fəxri Nümayəndənin gürcü dilini bilməsi də zəruridir. Gürcüstanın Diaspor məsələləri üzrə Fəxri nümayəndəsinin vəzifələri isə bunlardır:

Gürcüstan və əlaqədar diaspor arasında əlaqələri təmin edir;

Soydaş və diaspor təşkilatlarının xaricdəki fəaliyyətini təmin edir;

Diasporun Gürcüstandakı proseslərdə iştirakını təmin edir;

Yaşadığı ölkədə əlaqədar dövlət orqanının proqram və layihələrinin koordinasiyasını həyata keçirir;

Diaspor təşkilatlarının fəaliyyətində fəal iştirak edir və onların koordinasiyalı fəaliyyətini təmin edir;

Diasporla bağlı aktual məlumatları əlaqədar dövlət təşkilatına ötürür;

Müvafiq dövlət təşkilatına görülən işlərlə bağlı hesabat və məlumatları təqdim edir;

Yaşadığı ölkədə diaspor və digər dost ölkələrin diasporu ilə əlaqələri təmin edir;

Yaşadığı ölkənin dövlət təşkilatları ilə diaspor arasında, həmçinin Gürcüstanın Xarici İşlər Nazirliyi ilə diaspor arasında əlaqələri təmin edir.

Fəxri nümayəndə, ildə ən az bir dəfə öz hesabına Gürcüstana gəlir və əlaqədar təşkilat rəhbərinə icra edilən işlərin hesabatını təqdim edir. Nümayəndə özünə köməkçilər də təyin

edə bilər. Gürcüstan Xarici İşlər Nazirliyinin rəsmi internet saytında hal-hazırda 15-dən çox ölkədə Gürcüstanın Fəxri nümayəndəsinin fəaliyyət göstərdiyi bildirilir.[15] Bu ölkələrdəki fəxri nümayəndələrin adlarından bu şəxslərin əsasən mənşəcə ya öz ölkələrindən ya da yaşadıqları ölkələrin vətəndaşları olduğu müşahidə edilir.

Bununla yanaşı, ölkədə hər il 27 may tarixində Diaspor günü qeyd edilir. Bu gün 2007-ci ildə o vaxtki prezident M. Saakaşvili tərəfindən təsis edilmişdir. Eyni zamanda, 2010-cu ilin dekabr ayından etibarən isə Gürcüstan Azərbaycandakı soydaşlarının Gürcüstana köçürülməsinə başlamışdır.

Bu cəhd Avropa Birliyi tərəfindən də dəstəklənən "Vətənə Köçün Dəstəklənməsi Haqqında" Layihə çərçivəsində həyata keçirilir.

Digər tərəfdən, Diaspor Məsələləri üzrə Dövlət naziri Mirza Davitaya və dövlət universitetinin rektoru arasında Miqrasiya və Diaspor mövzuları üzrə müştərək bir tədqiqat mərkəzinin qurulması ilə bağlı müqavilə imzalanmışdır. Bu mərkəzdəki işlərin diaspor və miqrasiya problemləri ilə bağlı elmi tədqiqat sahəsində perspektivi təmin edəcəyi, tələbələrin də əlaqədar fəaliyyətlərə cəlb edilməsi nəzərdə tutulur.

Bununla yanaşı, Diaspor Məsələləri üzrə Dövlət Nazirliyi tərəfindən "Diaspor Parlamentinin Qurulması Haqqında" qanun layihəsi hazırlanır. Bu təşkilatın məqsədi daha çox soydaşın ölkə həyatının müxtəlif sahələrində iştirakının təmin edilməsi olaraq

[15] Nümayəndələrin əksəriyyəti xarici ölkələrdə soydaşların çox yaşadığı şəhər, rayon və ya bölgələr üçün təyin edilmişdir: Ukrayna (Jitomir), ABŞ (Los-Anceles, Oranj), Suriya (Şam), Bolqarıstan (Burqas), Cənubi Afrika Respublikası (Keyptaun), Almaniya (Münxen), ABŞ (Pensilvaniya, Pitsburq), Aralıq dənizi bölgəsi (Türkiyə, İzmir), Qazaxıstan (Alma-atı), Ukrayna (Lvov), ABŞ (Atlanta), Türkiyə (Samsun), Polşa (Bialistok), Avstraliya (Sidney), Fransa, Filippin (Baguio), Filippin (Manila), Livan (Beyrut), Hollandiya (Rotterdam)





göstərilir. Layihəyə görə, Diaspor Parlamenti 45 üzvdən ibarət olub, 30 üzvü Gürcüstanın xarici nümayəndəliklərində soydaşlar üçün keçiriləcək seçkilərdə seçiləcək, 15-i isə dövlət nazirliyi tərəfindən təyin ediləcək. Parlamentin 4 illiyinə seçilməsi nəzərdə tutulur. Diaspor Parlamenti haqqında qanunun paylanan soydaşlıq haqqında vəsiqələrin sayı 30 minə çatdığında tətbiq olunmağa başlanması nəzərdə tutulur. 1000-dən çox soydaşın yaşadığı ölkələrdən parlamentə 3 nümayəndə seçiləcəkdir. Parlament ildə bir dəfə 5 günlük iclaslarını Gürcüstan Parlamentinin binasında keçirəcək. Diaspor Parlamentində tematik və regional əsaslarla komitələrin yaradılması da nəzərdə tutulur. Parlamentin sədri dövlət naziri olacaq. Bu baxımdan Diaspor Parlamenti Gürcüstan parlamentinə soydaşlarla əlaqədar məsələləri birbaşa çatdırmaq, iclaslarda iştirak etmək və diaspor üçün hazırlanan büdcə prosesində iştirak etmək imkanına malik olacaq. Bundan başqa, dövlət naziri 2011-ci ilin payız aylarında soydaşların bir-biriylə əlaqəsi üçün yaradılan Georgian Diaspors Network ictimai şəbəkəsini də təqdim etmişdir.

2012-ci ilin avqust ayında o vaxtki dövlət başçısı M. Saakaşvili və Diaspor Dövlət naziri Davitaya, Gürcüstanın Müstəqillik günü münasibəti ilə Ukraynadakı bəzi soydaşlara Fəxri təltifləri təqdim etmişdir. Bu soydaşların-laureatların peşə profilinə baxıldığında, bunların arasında Gürcüstanın Ukraynadakı Cəmiyyətinin sədri, iş adamları, milli sənət-rəqs qrupunun rəhbərləri, yazıçılar, kino və s. sahələrdə fəaliyyət göstərən incəsənət və dövlət xadimlərinin olduğu müşahidə edilməkdədir.

## HİNDİSTAN: XARİCDƏ YAŞAYAN HİNDLİLƏR VƏ DİASPOR SİYASƏTİ

Hindistan dünyada ən geniş diasporu olan ikinci ölkədir. Hindistanın xaricdəki soydaşlarının 48-dən çox ölkədə (təqribən 10.000) məskunlaşdığı bildirilir. Ümumiyyətlə isə xaricdəki hindlilərin sayı (Hindistan vətəndaşı və Hindistan mənşəli olan soydaşlar da daxil olmaqla) təqribən 25 milyondur. 11 ölkədən yarım milyon əhalinin də Hindistan mənşəli olduğu haqqında məlumat mövcuddur. Xaricdə yaşayan hindlilər məsələsi 1977-ci ildən bəri hökumətin diqqət mərkəzindədir. 2010-ci ildə Xarici Əlaqələr Nazirliyi hind vətəndaş və soydaşların vəziyyətinin və onlarla əlaqələrin inkişaf etdirilməsi yollarını araşdıran xüsusi Ali Komitəni yaratmış və ona bu mövzuda hesabat təqdim edilməsi təlimatını vermişdir.

Hər il yanvar ayının 9-u xaricdəki hindlilərin həmrəylik günü olaraq qeyd olunmaqdadır. Belə ki, tarixdə bu gün (1915), M. Gandinin müstəqillik mübarizəsini verərkən Afrikadan Hindistana qayıtdığı gündür.

## "HİNDLİ OLMAQ"

"Hindistan soydaşı" anlayışı aşağıdakiləri əhatə edir:

Hindistan ölkə pasportuna malik olanlar;

Valideynləri ya da onların da valideynlərindən hər hansı biri bir zamanlar Hindistanda doğulmuş və ya burada daimi yaşamış olanlar;

Yuxarıdakı kateqoriyalara daxil olanların həyat yoldaşları.

Ümumiyyətlə isə, Hindistanda bu şəxslər "NRI" (Indian Citizens Not residing in India-Hindistanda yaşamayan Hindistan vətəndaşları) və "PIO" (Persons of Indian Origin who have acquired the citizenship of some other country-Hind mənşəli olub başqa ölkənin vətəndaşlığında olanlar) deyə iki qrupa ayrılır.





## DİASPOR SİYASƏTİ

Hazırda Xaricdə Yaşayan Hindlilər (Diaspor) Nazirliyi[16] adı altında fəaliyyət göstərən təşkilatın adı 2004-ci ilə qədər "Hindistanda Yaşamayan Hindlilərin İşləri Üzrə Nazirlik" idi. Yeni adı ilə bu nazirlik hazırda xaricdə yaşayan hindlilər sahəsində fəaliyyət göstərən əsas təşkilatdır. 2004-ci ildə təsis edilən nazirlik diaspor-soydaş təşkilat və birliklərini, ticarət və sənayeni, hüquqşünasları, araşdırma və beyin mərkəzlərini, ictimai təşkilatları və dövlət orqanlarından olan nümayəndələri əhatə edir. Nazirliyin əsas xarici təşkilatları bunlardır:

Xaricdə yaşayan hindlilərə Dəstək Mərkəzi (xarici investisiya və iş məsələlərini dəstəkləmək üçün);

Xaricdə Məşğulluğun artırılması Şurası (beynəlxalq miqrasiya sahəsində);

Xaricdə Hindistan Mərkəzləri (rifah, müdafiə və digər ictimai və özəl fəaliyyətləri dəstəkləmək üçün);

Hindistan Beynəlxalq İnkişaf Fondu (xeyriyyə işləri üçün);

Qlobal Hind Məlumat Şəbəkəsi (xaricdəki soydaşların bilik və təcrübələrinin mübadiləsi üçün virtual platforma).

Nazirlik diaspordakı uşaqlar üçün 2006-ci ildən etibarən təqaüd proqramını tətbiq edir və vətəndaşların uşaqlarının Hindistanda təhsil almasının təmin edilməsini qarşısına məqsəd qoymuşdur. 100 şagirdə illik 4000 dollar verilir və proqramda hindlilərin daha çox yaşadığı 40 ölkədən şagirdlər iştirak edir. Onlar "Ümumi Giriş İmtahanı"nda iştirak edirlər. Ölkənin soydaş və ya vətəndaşlar sahəsindəki siyasətinin əhəmiyyətli vasitələri olaraq, "Soydaş kartları", Pravasi Bharatiya Divas və Pravasi Bharatiya Samman Awards və "Köklərimizin Yolunda (Tracing

---

[16] Nazirliyin 4 xidmət bölümü mövcuddur: Diaspor Xidmətləri, Maliyyə Xidmətləri, Miqrasiya Xidmətləri, İnzibati Xidmətlər.

the Roots)" proqramları misal göstərilə bilər. Sonuncu program ilə Hindistandakı köklərini tədqiq etmək istəyən soydaşlara dövlət tərəfindən texniki-informasiya dəstəyi verilir. Soydaş kartlarının tətbiq edilməsinin (2005-ci ildən bəri) məqsədlərindən biri də Hindistan mənşəli şəxslərin vətəndaşlıq alma prosesini asanlaşdırmaqdır, çünki bu kartı aldıqdan 2 il sonra vətəndaşlıq alına bilər. Digər tərəfdən, bu kart sahiblərinə Hindistana sərbəst giriş-çıxış, iqtisadi, maliyyə və təhsil sahələrində bir sıra imkanlar da verilir. Lakin bu karta malik olmaq eyni zamanda ikili vətəndaşlığa da malik olmaq demək deyil və şəxsə siyasi hüquqları vermir. Bununla yanaşı, nazirlik müxtəlif ölkələrdə (Koreya, Çexiya və s.) işləyən vətəndaşlarının sağlamlıq sığortası ödənişindən azad edilməsi, sosial müdafiə və s. sahələrdə digər imtiyazları təmin edən qarşılıqlı müqavilələr imzalamağa davam edir. 2010-ci ildə büdcədən bu nazirliyin fəaliyyətlərinə 115 kror[17] ayrılmışdır.

Bununla yanaşı müvafiq sahədə fəaliyyət göstərən bir başqa təşkilat da - Hindistan Rifah Cəmiyyətidir, bu fond xaricdəki hind qadın, işçi və digər kateqoriyalardakı ehtiyacı olan şəxslərə dəstək verilməsi sahəsində ən fəal təşkilatlardan biridir. Sözü gedən nazirliyin xaricdə işləyən hindlilərlə bağlı diqqət çəkən fəaliyyətlərindən biri də, onlar üçün təsis edilən Pensiya və Həyat Sığortası xidmətidir. Belə ki, bu xidmət Miqrasiya İcazəsi üçün sənədi olan xaricdəki hind işçilərinin qazanclarının yığılması və sonradan vətənə qayıtdıqlarında bir sosial müdafiə təminatlarının mövcud olmasının təmin edilməsi məqsədi daşıyır. Fondun büdcəsi təqribən 2 milyon dollardır. Bununla yanaşı, təhsil sahəsində özəl bir təşkilat tərəfindən təsis edilən və soydaş (hind mənşəli) şagirdlərə təqaüdlü olaraq təhsil vermək və onların

[17] Hindistanda istifadə edilən hesab sistemi olub, 1 kror 10 milyon Hindistan rupisinə bərabərdir.





tədqiqatlarından istifadə etmək məqsədi güdən Soydaş Universiteti də fəaliyyət göstərir.

Diplomat, millət vəkilləri və hərbi keçmişi olan şəxslərdən ibarət olan, Hind Diasporu Ali Komitəsi, xaricdəki hind vətəndaş (Hindistan vətəndaşlığı olanlar) və soydaşlarının vəziyyətinin araşdırılması, onların Hindistandan tələb və istəklərinin öyrənilməsi, hindli soydaşlarla bağlı ölkə içində və xaricdə tətbiq olunan qanunvericiliyin araşdırılması və inkişaf etdirilməsi, xarici soydaşların Hindistanın iqtisadi, ictimai və texnoloji inkişafına verəcəkləri töhfənin araşdırılması, yurddaş və soydaşların problemlərinin öyrənilməsi və həlli üçün təkliflərin hazırlanması, bu icmalarla bağlı konkret tədbir planlarının hazırlanması və soydaşlarla qarşılıqlı fayda əsasında onların Hindistan və yaşadıqları ölkə iqtisadiyyatına inteqrasiyasının təmin edilməsi istiqamətindəki işləri icra edir.

Bu təşkilatlarla yanaşı, 18-26 yaşları arasında Hindistan diasporu və soydaş gənclərini birləşdirən "Hindistanın Tanınması Proqramı" çərçivəsində xarici nümayəndəlikləri tərəfindən müəyyən edilən meyarlara görə seçilən gənclər tamamilə dövlət hesabına ölkəyə gətirilir və Hindistanda onlar üçün bəzi tanışlıq və yaradıcılıq fəaliyyəti təşkil edir. Bundan başqa, 2003-ci ildən etibarən Hindistan hökuməti hər il Pravasi Bharatiya Samman Awards mükafat mərasimini təşkil edir. Belə ki, mükafat (qızıl medal) Hindistanda yaşamayan, ancaq hind mənşəli şəxs və ya təşkilatlara verilir. Bu mükafat aşağıda göstərilən sahələrdəki fəaliyyətlərə görə verilir:

Xaricdə Hindistanın daha yaxşı tanınması və Hindistan maraqlarının təmsili;

Diasporun rifahı naminə xidmət;

Hindistanda və xaricdə xeyriyyəçilik və ictimai-humanitar işlər;

Hindistan və diaspor arasında iqtisadi, mədəni və elmi əlaqələrinin inkişaf etdirilməsi;

Hindistanın xaricdəki prestijini artıracaq (öz sahəsində) əhəmiyyətli uğurlara nail olmaq.

Bu mükafat üçün namizədləri xarici nümayəndəliklər, əhəmiyyətli ölkə miqyaslı təşkilatlar və əlaqədar nazirlik nümayəndələri irəli sürür. 81 namizəd (şəxs və təşkilat) bu fəxri mükafata layiq görülmüşdür. Bu medalın üzərində müvafiq nazirliyin simvolu əks olunmuşdur. Bununla yanaşı, Xaricdə Yaşayan Hindlilər Nazirliyinin təşəbbüsü ilə vətəndaş və soydaş gənclərinin (18-30 yaş arasındakı) təşkilatlanması üçün təsis edilən Xaricdə Yaşayan Hind Gənclər Klubu da digər bölgə və ölkələrdə nümayəndələri ilə müvafiq sahələrdə fəaliyyətlərini davam etdirir.





## RUSİYA FEDERASİYASI: RUSİYA SOYDAŞLARI VƏ İCTİMAİ DİPLOMATİYA

Rusiya Federasiyası (RF) Xarici İşlər Nazirliyinin rəsmi internet saytında soydaşlara əhəmiyyətli bir yer ayrılmışdır. Saytda RF-nin soydaşlar sahəsindəki qanunvericiliyi[18], Xaricdəki

---

[18] RF-nin müvafiq sahədə tətbiq olunan qanunvericiliyi belədir: 09.11.2011-ci il tarixli RF Hökumətinin 2012-2014-ci illərdə Xarici Soydaşlarla İş Üzrə Proqramının Təsdiqi Haqqında 1799-P saylı qərarı, 18.11.2010-ci il tarixli RF Hökumətinin "Xaricdəki Soydaşların RF-yə Könüllü Qayıtmasına Dəstəyin Verilməsi" haqqında 843 saylı qərarı, 05.08.2010-ci il tarixli "Xaricdəki Soydaşlar Sahəsində Dövlət Siyasəti Haqqında Qanuna Düzəlişlər Edilməsi Haqqında" 179-F3 saylı Federal Qanun, 05.08.2009-ci il tarixli" RF-nin Xaricdə Yaşayan Soydaşlar Sahəsində Dövlət Siyasəti Haqqında" Federal Qanun, 04.03. 2009-ci il tarixli RF prezidentinin "Vətəndaşlığı Olmayıb, Köhnə SSRİ Vətəndaşlığı Olan və Latviya-Estoniyada Yaşayanların RF-yə Giriş-Çıxışının Tənzimlənməsi Haqqında" fərmanı, 25.02.2009-ci il tarixli "Xaricdə Yaşayan Soydaşlarla 2009-2011-ci illər ərzində İş üzrə Proqram", 20.10.2008-ci il tarixli "Xaricdəki Soydaşların RF-yə Könüllü Qayıtmasına Dəstək Verilməsi Üzrə Dövlət Proqramının İştirakçılarına Maliyyə və Hüquqi Dəstək üçün Federal Büdcədən Ödənişlərlə Bağlı Qaydalar Haqqında" 715 saylı qərar, 23.01.2008-ci il tarixli "Xaricdəki Soydaşların RF-yə Könüllü Qayıtmasına Dəstək Verilməsi Üzrə Dövlət Proqramı İştirakçılarına Nəqliyyat Xərclərinin Ödənilməsi Qaydalarına Düzəlişlərin Edilməsi Haqqında" 1. saylı qərar, 20.07.2007-ci il tarixli "Xaricdəki Soydaşların RF-yə Könüllü Qayıtmasına Dəstək Verilməsi Üzrə Dövlət Proqramının İştirakçıları ilə İşin Təşkili Haqqında" 403 saylı qərar, 13.06.2007-ci il tarixli RF Hökumətinin" Xaricdəki Soydaşların RF-yə Könüllü Qayıtmasına Dəstək Verilməsi Üzrə Dövlət Proqramının Məlumat Təminatı Haqqında" 347 saylı qərarı, 21.03.2007-ci il tarixli RF Hökumətinin "Xaricdəki Soydaşların RF-yə Könüllü Qayıtmasına Dəstək Verilməsi Üzrə Dövlət Proqramı İştirakçılarına Nəqliyyat Xərclərinin Ödənilməsi Qaydaları Haqqında" 150 saylı qərarı, 14.03.2007-ci il tarixli RF Hökumətinin "29 Noyabr 2003-ci ildən etibarən RF Sərhədlərindən Şəxsi İstifadə üçün Keçirilən Mallara Yeganə Gömrük Vergisinin Tətbiqi Haqqında Qərara Düzəlişlər Edilməsi Haqqında" 142 saylı qərarı, 01.03.2007-ci il tarixli RF Hökumətinin "RF Hökumətinin Bəzi

Soydaşlarla İş üzrə Hökumət Komissiyası, Dünya RF Soydaşları Koordinasiya Şurası, soydaşlarla iş aparan federal, regional və yerli dövlət orqanları haqqında ətraflı məlumatlar, soydaşlarla bağlı aktual məsələlər, Xaricdə Yaşayan Soydaşların RF-yə Könüllü Qayıtmasına Dəstək verilməsi üzrə Dövlət Proqramı, soydaşlarla bağlı xəbərlər, soydaşların mükafatlandırılması, Xaricdə Yaşayan Soydaşların Hüquqlarının Qorunması və Dəstək Fondu və digər mövzularda geniş informasiya verilmişdir.

Bu çərçivədə fəaliyyət göstərən əhəmiyyətli təşkilatlardan biri Xaricdə Yaşayan Soydaşlarla İş üzrə Hökumət Komissiyasıdır. Komissiya RF Prezidentinin 11 avqust 1994-cü ildən etibarən "RF-nin Soydaşlar Sahəsində Dövlət Siyasətinin Əsas İstiqamətləri Haqqında" fərmanı və 11 dekabr 1994-cü ildən etibarən "Soydaşların Dəstəklənməsi Tədbirləri Haqqında" qərarı çərçivəsində yaradılmışdır. Komissiya RF və onun üzvlərinin qanunvericilik və icra hakimiyyəti orqanlarının nümayəndələrindən (RF Hökuməti, RF Prezidentinin Aparatı, Federasiya Şurası, Dövlət Duması, RF Xarici İşlər Nazirliyi, RF Maliyyə Nazirliyi, Moskva Rəhbərliyi, St. Peterburq Rəhbərliyi, Tatarıstan Respublikası Rəhbərliyi və s.) ibarətdir. Bu təşkilat RF hökumətinin müvafiq sahədəki bütün federal və digər orqanlarının koordinasiyasını həyata keçirən orqanıdır. Komissiya soydaşlar sahəsində siyasətin tətbiqi və qanunvericilik təkliflərinin verilməsi, xaricdəki diaspor fəaliyyətlərinin təşkili üzrə əlaqə və

---

Qərarlarına Düzəlişlər Edilməsi Haqqında" 42 saylı qərarı, 22.02.2007-ci il tarixli RF Hökumətinin "Miqrasiya Qeydiyyatının Dövlət Məlumat Sistemi Haqqında" 94 saylı qərarı, 05.02.2007-ci il tarixli RF Hökumətinin "RF-də Vətəndaşlığı Olmayan və ya Xarici Ölkə Vətəndaşlığı Olanların Miqrasiya Qeydiyyatının təşkil Edilməsi Haqqında" 9 saylı qərarı, 26.01.2007-ci il tarixli RF Hökumətinin "RF Hökumətinin 6 Aprel 2005-ci ildən etibarən RF-də Müvəqqəti və ya Daimi Yaşayan Xarici Vətəndaşların Qeydiyyatı Üzrə Mərkəzi Məlumat Bankının yaradılması və İstifadəsi Haqqındakı Qərarına Düzəliş Edilməsi Haqqında" 2 saylı qərarı və RF-nin digər normativ aktları.





əməkdaşlığın qurulması, soydaşların dəstəklənməsinə ayrılan vəsaitin istifadəsinə nəzarət, xaricdə Rus dili və mədəniyyətinin inkişaf etdirilməsi, diasporun təşkilatlanmasının dəstəklənməsi, soydaşların məlumatla təminatı sahələrində vəzifələri yerinə yetirir və ildə 4 dəfə iclas keçirir. Komissiya 25 üzvdən ibarət olub, rəhbəri Xarici İşlər Naziri S. Lavrov, müavinləri isə RF xarici işlər nazirinin müavini, xarici işlər nazirliyi aparatının rəhbəri və Rossotrudniçestvonun (qısaca Xaricdə Yaşayan Soydaşlar Təşkilatı) sədridir. Hər il Xaricdə Yaşayan Soydaşlar Hökumət Komissiyası tərəfindən 10 soydaş təltif edilir. Mükafatlandırma təşəbbüsünü ölkələrdəki soydaş koordinasiya şuraları RF-nin ölkələrdəki səfirlikləri ilə razılaşaraq irəli sürürlər. Yekun təltif təklifini isə Xarici İşlər Nazirliyi hazırlayır. Mükafatlandırma 7 meyar üzrə (Sosial fəaliyyətlər, Rus dili, Mədəniyyət, Xeyriyyə fəaliyyəti, İdman, Media, Gənclərlə iş) həyata keçirilir. Ölkə və bölgələrin diaspor şuralarından gələn təkliflərə Rusiya Soydaşları Koordinasiya Şurası tərəfindən baxılır və Soydaşlar Üzrə Hökumət Komissiyası tərəfindən təsdiq edilir. Təltif mərasimləri əsasən Rusiyanın milli bayram günlərində və böyük miqyaslı konqres və s. tədbirlərdə həyata keçirilir ("Dostluq" Ordeni və "Puşkin" medalı).

Bununla yanaşı, başqa bir təşkilat da Dünya Rusiya Soydaşları Şurasıdır ki, o da Dünya Rusiya Soydaşları Konqresinin nümayəndə orqanıdır. Bu şura xaricdəki soydaş təşkilatlarının koordinasiyasını təmin etməkdə və dünya soydaş konqresləri arasındakı zaman müddətində RF dövlət orqanlarında soydaşların nümayəndəliyini həyata keçirir. 25 üzvdən ibarət olan şura Rusiya soydaşlarının xarici ölkə və bölgələrdəki ən böyük diaspor nümayəndələrindən (onlar ölkə və bölgə konfranslarında seçilir və əsasən xaricdəki diaspor, mədəni və dini təşkilatların başçılarıdır) ibarətdir. Bu üzvlər hər il Dünya Soydaş Koordinasiya Şurasının qərarı ilə əlaqədar təşkilatların təklifləri əsasında seçilir və təsdiq edilir. Şura Rusiya və digər ölkələrdə

ildə 2-3 dəfə iclas keçirir. Şuranın qəbul etdiyi qərarlar sadə səs çoxluğu ilə qəbul edilir və tövsiyə xarakteri daşıyır. Şura fəaliyyətini həyata keçirmək üçün müəyyən ofislər və müəyyən sahələrdə işçi qrupları da təşkil edir.

Bununla yanaşı, müvafiq sahədə RF Prezidentinin 25 may 2011-ci il tarixli və 678 saylı qərarı ilə yaradılmış Xaricdə Yaşayan Soydaşların Müdafiəsi və Dəstəklənməsi Fondu da fəaliyyət göstərir. Fond özəl və qeyri-kommersiya xarakterli şəxslərə, soydaşlara metodik, informasiya, təşkilati, hüquqi, maddi dəstək, hüquqların qorunması və yaşadıqları ölkələrdə hüquqi maraqlarının müdafiə olunması istiqamətindəki layihələrin reallaşdırılması üçün qrantlar verir. Fond qrant və yardımları müqavilə əsasında verir. Fond xaricdəki fəaliyyətini xarici ölkələrin qanunvericiliyi və beynəlxalq hüquq normaları çərçivəsində həyata keçirir. Fondun təsisçiləri RF Xarici İşlər Nazirliyi və Rossotrudniçestvo təşkilatlarıdır. 2012-ci ildə Fondun büdcəsi 3 milyon dollar olmuşdur.

## RUSİYA SOYDAŞI OLMAQ

24 May 1999-ci ildə qəbul edilmiş, "Rusiya Federasiyasının Xaricdə Yaşayan Soydaşları ilə Əlaqədar Dövlət Siyasəti Haqqında" Federal Qanunun 1-ci maddəsində "Rusiya soydaşlığı" anlayışı belə izah edilir:

Başqa bir ölkədə doğulan, yaşayan lakin müştərək dil, tarix, mədəni mirasa, adət-ənənələrə malik olanlar və onların nəsilləri;

Rusiya xaricində daimi yaşayan RF vətəndaşları;

Rusiya xaricində yaşayan, lakin Rusiya Federasiyası ərazisində tarixən yaşamış olanlar, RF ilə mənəvi, mədəni və hüquqi əlaqələrə malik olanlar;

SSRİ vətəndaşlığına malik olan, SSRİ-yə daxil ölkələrdə yaşayıb bu ölkələrin vətəndaşlığını alanlar və vətəndaşlıqdan məhrum olanlar;





RSFSR, SSRİ və RF vətəndaşlığına malik olub lakin buradan köçüb başqa ölkələrdə vətəndaşlıq alanlar və ya vətəndaşlıqdan məhrum olanlar;

RF ərazisində daimi və ya müvəqqəti olaraq qanuni əsaslarla yaşayan xarici vətəndaşlığa malik olanlar ya da heç olmayanlar.

## RUSİYA FEDERASİYASI MÜSTƏQİL DÖVLƏTLƏR BİRLİYİ, SOYDAŞLAR VƏ BEYNƏLXALQ YARDIMLAŞMA VƏ ƏMƏKDAŞLIQ FEDERAL AGENTLİYİ

Qısaca Rossotrudniçestvo deyə adlandırılan bu təşkilat, 2008-ci ilin sentyabr ayında prezidentin fərmanı ilə yaradılmışdır və fəaliyyətini RF Xarici İşlər Nazirliyi nəzdində və RF Konstitusiyası, prezident və RF Hökumətinin qərarları, beynəlxalq müqavilələr, xarici işlər qanunvericiliyi çərçivəsində icra edir. Təşkilatın rəhbəri (ölkənin prezidenti tərəfindən təyin olunur) 2012-ci ilin 5 mart tarixindən etibarən Rusiya dövlət xadimi və diplomat olan Konstantin İosifoviç Kosaçevdir. 2008-2012-ci illərdə isə təşkilata rəhbərliyi Farit Mubarekşeviç Muhamet yerinə yetirmişdir. Rossotrudniçestvo Rusiya xaricində 76 ölkədə öz funksiyalarını RF diplomatik missiyası tərkibində 83 nümayəndəliyi və 58 rus mədəniyyət və elm mərkəzləri vasitəsilə həyata keçirir. Hazırda təşkilatın fəaliyyəti coğrafi olaraq ABŞ-dan Yaponiyaya və Finlandiyadan Argentinaya qədər olan geniş bir ərazini əhatə edir. Təşkilatın əsas məqsədi Rus Mədəniyyət Mərkəzlərinin xarici ölkələrdə sayının artırılması, xüsusilə MDB ölkələrində rus diasporu ilə əhəmiyyətli layihələrin həyata keçirilməsi və onların yaşadıqları ölkələrdə fəallığının artırılması, milli-mədəni xüsusiyyətlərinin mühafizə etmələrinə dəstək verilməsi, xaricdə rus dilinin prestiji və yayılmasının, soydaşların və diasporun Rusiyada təhsilə cəlb edilməsinin təmin edilməsidir. Bu məqsədlər çərçivəsində təşkilat

soydaşların seçilərək təhsil almaq üçün Rusiyaya göndərilməsi, onların yaşadığı ölkələrdə Rusiyanın universitetlərinin filiallarının açılması, Rus Mədəniyyət Mərkəzləri nəzdində soydaş uşaqları üçün rus dilinin tədrisinin təmin edilməsi və digər vəzifələri yerinə yetirir.

2012-ci ilin oktyabrında RF Baş Naziri D. Medvedevin də iştirak etdiyi yüksək səviyyədə keçirilən iclasda Xarici İşlər Naziri S. Lavrovun Rossotrudniçestvo Agentliyinin, Rusiya universitetlərində oxumaq üçün xaricdən gələn tələbələri seçmək səlahiyyəti olan yeganə dövlət orqanı olmasını təklif etmişdir. O burada "Biz hər il xarici tələbələr üçün 10 min dövlət təqaüdü təklif edirik. Mən bu rəqəmin iki dəfə artırılmasını və xüsusilə dost ölkələrdən gələn tələbələr və yurddaşlarımız üçün kvotanı artıraraq ildə 20.000 təqaüd imkanının təmin edilməsini təklif edirəm" deyə bildirmişdir. Bununla yanaşı, sözü gedən agentlik "Rusiya Federasiyasına Xaricdə Yaşayan Soydaşların Könüllü Köçürülməsi" Dövlət Proqramını da həyata keçirir. Proqramın əsas məqsədləri, Rusiya Federasiyasının miqrasiya siyasətinin əsas istiqamətlərindən biri olan soydaşların Rusiyaya gətirilməsinin təmin edilməsidir. Bu proqram çərçivəsində 2012-ci ilin 31 mart tarixinə qədər cəmi 78.397 müraciət daxil olmuşdur. Ən çox müraciət Qazaxıstan, Özbəkistan, Moldova, Ermənistan, Ukrayna, Qırğızıstandan gəlmişdir. Müraciət edənlərin 69%-i kişilərdir. Proqramın indiyə qədər həyata keçirildiyi müddətdə 69.461 soydaş Rusiyaya gətirilmişdir. Mərkəz bölgəsi, Ural bölgəsi, Sibir bölgəsi, Cənubi Federal bölgəsi, Volqa ətrafı, Uzaq Şərq bölgəsi, Şimali-Qərb bölgəsi gələn soydaşların yerləşdirildiyi prioritetli bölgələr olaraq müəyyənləşdirilmişdir.

Rus mədəniyyətində yetişmiş, rus dilində danışan insanların Rusiya cəmiyyətindəki əlaqələrinin inkişafı istiqamətində müsbət töhfələr verəcəyinin bildirildiyi bu program stratejik bölgələrdən kritik səviyyədə olan emiqrasiyanın və





əhalinin azalması təhlükəsi olan Rusiyanın sosial-iqtisadi inkişafını demoqrafik baxımdan da dəstəkləməyi qarşısına məqsəd qoymuşdur. Bu proqram prezident V. Putin tərəfindən 2006-cı ilin iyununda təsdiq edilmişdir. Burada Rossotrudniçestvonun xaricdəki soydaşların təhsil, dil, sosial, məşğulluq, humanitar və digər qanuni hüquq və maraqları sahəsində dəstəkləyən siyasəti həyata keçirən digər federal təşkilatlarla koordinasiyalı şəkildə fəaliyyət göstərməsi nəzərdə tutulmuşdur. Bu koordinasiyalı fəaliyyətin Rusiyanın xaricdəki rus dilli diasporu ilə kommunikasiyanın, digər ölkələrlə Rusiya arasındakı iş və elmi əlaqələrin genişlənməsi, "qardaş" şəhərlərlə və regional əməkdaşlıqla paralel həyata keçirilməsi nəzərdə tutulmuşdur. Bununla yanaşı, Rossotrudniçestvo "2012-2014-ci illərdə Xaricdəki Soydaşlarla İş", "2011-2015-ci illərdə Rus Dili" Federal proqramlarını da həyata keçirir. 2010-ci ildən etibarən Rossotrudniçestvo həmçinin Rusiya Daxili İşlər və Mədəniyyət Nazirlikləri, Dövlət Arxiv İdarəsi ilə birlikdə xarici ölkələrdə Rusiya üçün tarixi-mədəni əhəmiyyətli abidələrin qorunması ilə bağlı fəaliyyəti də həyata keçirir.

2013-ci ildə Agentliyə büdcədən təqribən 60 milyon dollar ayrılmışdır. Bu məbləğin əksəriyyəti (51 milyon) mərkəzi aparat və xaricdə olan 51 nümayəndəliyin fəaliyyəti üçün istifadə edilmişdir. Qalan 9 milyon dolların 3 milyonu agentliyin 73 ölkədəki proqramları üçün istifadə edilmişdir. Digər 3 milyon dollar isə Rusiyaya gənc siyasətçilər və ictimai nümayəndələrdən ibarət olan heyətlərin ziyarət proqramlarının reallaşdırılması üçün xərclənmişdir. Bu proqramlar çərçivəsində 2012-ci ildə 500 nəfər, 2013-ci ildə 700 nəfər Rusiyanı ziyarət etmişdir. 2020-ci ilə qədər təşkilatın büdcəsinin 270 milyon dollara qədər artırılması nəzərdə tutulur.

## YUNANISTAN: XARİCDƏ YAŞAYAN YUNANLAR VƏ OMOGENİA

Bəzi hallarda Helenik diaspor olaraq da adlandırılan Yunan diasporu Yunanıstandan xaricdə yaşayanları əhatə edir və onlar əsasən Cənubi Şərqi Avropa və Kiçik Asiyada məskunlaşmışdır. Xaricdə təqribən 6,7 milyon yunan mövcuddur. Bunlar ya özləri, ya da əcdadları Yunanıstandan köçən şəxslərdir. Etnik mənşəyi yunan olub, Yunanıstandan xaricdə doğulanlar valideyn və ya onların da valideynləri milliyyətcə yunan olduğunu sübut edən şəxslər vətəndaşlıq ala bilər. Hazırda yunan diasporunun ən əhəmiyyətli mərkəzləri Nyu York, Çikaqo, Boston, London, Melburn, Sidney, Monreal və Torontodur.

### "BİRLİK" BƏYANNAMƏSİ VƏ YA "YUNAN OLMAQ"

2008-ci ilin 15 avqust tarixində dünya yunanları tərəfindən qəbul edilən Bəyannamənin müqəddiməsi yunan diasporunu birləşdirən dəyərləri anlamaq baxımından diqqətə layiqdir: *"Biz, yunan təşkilatlarının nümayəndələri müqəddəs Pont torpağını ziyarət edərək, Panagiya Sumela monastırının Pont ellinizminin müqəddəs abidəsinə toxunduqda mənəvi və ruhi oyanışı hiss edərək bizlərdə inanc ruhunu və milli-dini şüurumuzu qoruduğu üçün Tanrıya şükür edirik."*

Bəyannamədə dünya yunan diasporu qarşısında, Pont yunanlarının nəsilləri olan günümüzdəki və gələcək nəsillərin yunan dili, dini, milli, mədəni xüsusiyyətlərinin unudulmaması və qorunması üçün proqramların həyata keçirilməsi, yunan gənclərə mənəvi-əxlaqi dəyərlərin aşılanması, xaricdəki yunanlara dəstəyin təmin edilməsi və s. vəzifələrin qoyulduğu bildirilir.





Helenist görüşlərlə yanaşı, bəyannamədə xüsusilə pravoslavlık inancı və mədəniyyətinin də vurğulandığı müşahidə edilir.

### XARİCDƏ YAŞAYAN YUNANLAR

Bu çərçivədə fəaliyyət göstərən fəal təşkilatlardan biri olan Dünya Yunanları Şurası (SAE), Yunanıstan Xarici İşlər Nazirliyinə tabe olub, Yunan diasporu ilə əlaqədar bəzi işləri həyata keçirir. Statistikaya görə, 3 milyon yunan vətəndən kənarda yaşayır. Bu Şuraya görə isə bu rəqəm 7 milyondur. Yunan lobbisi, xüsusilə ABŞ-da maraqların qorunması sahəsində fəal iştirak edir. Şura[19] 1995-ci ildə təsis edilmişdir. İqamətgahı Səlanikdədir (Makedoniya). Bu təşkilat xaricdə yaşayan milliyyətcə yunan olanları təmsil edən əsas təşkilatdır. 2006-ci ildə çıxarılan qanuna görə, şura diaspor ("omogenia") sahəsində Yunanıstan dövlətinə tövsiyələr vermək səlahiyyətinə malikdir. Şuranın məqsədi "Yunan diasporunu birləşdirərək "omogenia"nın (soydaşların birliyinin) Yunanıstan dövlətini tövsiyələrlə təmin etməsi üçün tədbir və proqramları planlaşdıran və həyata keçirən qlobal şəbəkənin yaradılmasıdır." Şura yunan diasporunu Yunanıstan dövləti və hökuməti nəzdində təmsil edir. Prezidentin fərmanı ilə təsis edilən bu şuranın fəaliyyət əsasları və missiyası Yunanıstan Konstitusiyasının 108-ci maddəsində göstərilmişdir. Hələ 1995-ci ildə xaricdəki yunanlar ilk dəfə "Bütün Dünya Yunanları" təşkilatının qurulması üçün cəhd göstərmişlər. Bu şuranın[20] sədrliyini 1995-2006-ci illər arasında Çikaqodan seçilən

---

[19] Dünya Yunan (Helen) Şurasının təşkilat quruluşu belədir: Sədr, Katib, Regional koordinatorlar (7), Pomak nümayəndəsi. Bununla yanaşı, Şuranın rəsmi internet saytında, təşkilatın həyata keçirdiyi layihələr bu başlıqlar altında qruplaşdırılmışdır: Pravoslavlık, Təhsil, Tarix, Mədəniyyət, Ekologiya, İdman, Kitabxana (kitab və filmlər), Müsabiqələr.

[20] Şura yeddi bölgə ilə bağlı fəaliyyət göstərir: ABŞ bölgəsi (11 üzv), Kanada bölgəsi (5 üzv), Mərkəzi və Cənubi Amerika (Latin Amerikası) bölgəsi (5

(ABŞ) Andrew Athens həyata keçirmişdir. 2006-cı ilin dekabrında şuranın VI. Dünya Qurultayı keçirilmişdir. Burada sədr vəzifəsinə Stefanos Tamvakis seçilmişdir. Şuranın müxtəlif ölkələrdəki fəaliyyətinə diqqət yetirdikdə məsələn, Ukraynada Milli Yunan dili və mədəniyyəti müsabiqələri və s. ciddi tədbir və fəaliyyətləri həyata keçirdiyi müşahidə edilməkdədir.

Digər tərəfdən, müvafiq sahədə fəaliyyət göstərən yunan gənclərin şəbəkələri (2008) "Next Generation Initiative" (Yeni Nəsil Təşəbbüsü) ABŞ-da, xüsusilə gənc yunan diasporunun milli xüsusiyyətlərinin itirilməsi və digər assimilyasiya problemləri sahəsində akademik tədqiqatların həyata keçirilməsi üçün səylərini davam etdirir.

Xaricdə yaşayan yunanlarla bağlı fəaliyyət göstərən başqa bir təşkilat da Xaricdə yaşayan Yunanların Baş Katibliyidir[21]. 1983-ci ildə təsis edilən və Yunanıstan Xarici İşlər Nazirliyinin nəzdində olan təşkilat xüsusi büdcəyə malikdir. Təşkilatın əsas vəzifələrini "xaricdə yaşayan və işləyən soydaşların həyat

üzv), Avropa bölgəsi (11 üzv), Köhnə SSRİ ölkələri bölgəsi (5 üzv), Afrika, Yaxın və Orta Şərq bölgəsi (7 üzv), Okean və Uzaq Şərq bölgəsi (9 üzv). Bu bölgələr üzrə koordinator və koordinasiya şuraları da mövcuddur. Regionlar üzrə koordinasiya şuraları bölgələrini təmsil edir, müvafiq işlər üçün təkliflər hazırlayır və ildə bir dəfə iclas keçirir. Dünya Yunan Şurasının üzvləri yunan icmalarının təşkilatları, federasiyaları, Helenik Mədəniyyət Mərkəzləri, Xaricdəki Kiprlilərin Dünya Federasiyası (POMAK) və s. ibarətdir.

[21] YBK-nın təşkilat quruluşu belədir: Xarici İşlər Naziri, nazir müavini, Baş katib, Avropa Bölgəsi (Avropa Birliyi Ölkələri Departamenti, Avropa Birliyinə üzv olmayan Ölkələrin Şöbəsi), Amerika Bölgəsi (ABŞ və Kanada Şöbəsi, Mərkəzi və Cənubi Amerika Şöbəsi), Sakit Okeanı, Asiya və Afrika Bölgəsi (Sakit Okeanı şöbəsi, Asiya və Afrika şöbəsi), İnzibati Dəstək İdarəsi (Təşkilat və Planlaşdırma şöbəsi, Maliyyə şöbəsi, Katiblik şöbəsi, Məlumat şöbəsi), Proqramlar İdarəsi (Protokol, AB və Beynəlxalq Təşkilatlar Proqramları şöbəsi, Kitabxana və Resurslar şöbəsi), Hüquq şöbəsi, İnformasiya, Mətbuat və İctimai Əlaqələr şöbəsi, Xaricdə Yaşayan Yunanlar Şurası şöbəsi.





şəraitini yaxşılaşdırmaq, milli-mədəni və dini xüsusiyyətlərini qorumağa dəstək vermək, yaşadıqları ölkənin həyatına inteqrasiya etmələrinə və Yunanıstan dövləti və cəmiyyəti ilə əlaqələrinə dəstək vermək" olaraq müəyyənləşdirilmişdir. Təşkilatın fəaliyyətlərinə soydaşlar üçün təhsil proqramları (soydaş uşaqları, jurnalist, müəllim və s. üçün), konqres, seminar və digər tədbirlər, maddi-texniki dəstək, məlumat təminatı və s. misal göstərmək olar. 2014-ci ildə təşkilat üçün büdcədən 3,5 milyon avro ayrılmışdır.

Bu sahədəki başqa bir təşkilat da - Yunanıstanın parlamenti ilə dünyadakı yunan diasporu arasında əlaqə və münasibətlərin təmin edilməsi istiqamətində fəaliyyət göstərən Xaricdə Yaşayan Yunanların Daimi Komissiyasıdır. O, diaspor problemlərinin həlli sahəsində Dünya Yunanları Şurasına (SAE) dəstək verir. Bununla yanaşı, müvafiq sahədə Yunan Gənclər Parlamenti, təhsil, elm və mədəniyyət proqram və layihələrinə maliyyə dəstəyini verən Helen Parlament Fondu, Yunan cəmiyyətini diaspor və parlament komissiyasının fəaliyyəti haqqında məlumatlandıran Helen Parlament Televiziyası da fəaliyyət göstərir.

Bu çərçivədə 1996-ci ildə təsis edilən və dünya ölkələrində milliyyətcə yunan olan millət vəkillərini (dünya parlamentlərinə seçilən 170 üzvü mövcuddur) birləşdirən Dünya Parlamentlərarası Hellinizm Assosiasiyası (PADEE) hazırda 28 ölkədə yunan mənşəli millət vəkilləri ilə fəaliyyət göstərir. SAE ilə sıx əməkdaşlıq edən assosiasiyanın vəzifəsi yunan mənşəli millət vəkillərini müvafiq ölkələrdəki diaspor ilə əlaqələndirmək və beləliklə problemlərin həllini təmin etməkdir. Bu təşkilatlarla yanaşı, 2001-ci ildə Yunanıstan Bələdiyyə və Cəmiyyətlərinin Mərkəzi Birliyinin təşəbbüsü ilə təsis edilən Avropanın Yerli İdarəetmə Orqanlarına Seçilən Xaricdəki Yunanların Şəbəkəsi də xaricdə yaşayan və yaşadığı ölkənin yerli və regional idarəetmələrində fəal iştirak edən yunanları birləşdirir. Bundan

başqa, xaricdəki diaspor sahəsində fəaliyyət göstərən media orqanları da mövcuddur. Bu çərçivədə ildə iki dəfə nəşr olunan və Balkan ölkələri, Aralıq dənizi bölgəsindəki və digər diasporlar istiqamətində yunanlarla əlaqədar mövzuların tədqiq edildiyi Helenik Diasporu Jurnalı (JHD) yunan dünyasının Qərbin xüsusiyyətlərini və cəmiyyətlərini yenidən formalaşdırması paradiqması ilə nəşr işlərini həyata keçirir. Bu paradiqmaya əsasən, "Yunan dünyası Şərq və Qərbi Avropa, eyni zamanda şərq və qərb dəyərləri arasındakı bir mövqeyə malikdir". Burada yunanlarla bağlı müasir və aktual mövzular antropologiya, tarix, tənqidi ədəbiyyat, fəlsəfə və ictimai elmlər çərçivəsində tədqiq edilir. Başqa bir jurnal da - rus dilində yunan diasporunun məsələlərini işıqlandıran və ildə 4 dəfə nəşr olunan "Ellada" adlı nəşr orqanıdır.





## NƏTİCƏ

"Soydaş" və "yurddaşlık" anlayışlarının məzmunu müxtəlif ölkələr baxımından fərqli olsa da, araşdırılan ölkə nümunələrinin hər birində, bu icmalara və xüsusilə də diaspor istiqamətləndirilən siyasəti hazırlayan və tətbiq edən müxtəlif adlarla ölkə içərisində və beynəlxalq səviyyədə fəaliyyət göstərən təşkilat və mexanizmlərin mövcud olduğu müşahidə edilmişdir.

Xaricdə yaşayan soydaşlara istiqamətlənən bu siyasətin əksəriyyətinin dil, təhsil, siyasi-ideoloji, mədəni ideoloji və s. kimi müəyyən sahələrdə müxtəlif ölkələrdə müxtəlif olduğu da müşahidə edilmişdir. Hər ölkənin xarici vətəndaş və soydaşlarla bağlı tətbiq etdiyi strategiya və siyasət o ölkənin tarixi, inzibati, siyasi, sosial, iqtisadi və mədəni xüsusiyyətləri ilə də çox bağlıdır. Digər tərəfdən də, inzibati struktur xüsusiyyətlərinə baxıldığında, ölkə vətəndaşlarının problemləri, soydaş-yurddaş icmalarla əlaqələrin inkişaf etdirilməsi, media sahəsində fəaliyyətlər, tələbələrə təqaüdlərin verilməsi, qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq, lobbiciliyi gücü yaratmaq üçün təşkilatlandıqları müşahidə edilmişdir. Bunlar beynəlxalq hüququn tələbləri nəzərə alınaraq hüquqi zəmin çərçivəsində həyata keçirilməkdədir.

Bu cür tarixi - mədəni zənginliklərə malik cəmiyyətlər üçün əvəz olunmaz bir yol olan bu fəaliyyətlər planlı və müntəzəm bir şəkildə həyata keçirildiyində ölkənin imicinin yaxşılaşdırılmasında effektiv bir vasitəyə çevrilir. Digər tərəfdən bu tədqiqat ölkələrin siyasi-inzibari dairələrinin bu sahədəki işlərə xüsusi əhəmiyyət verdiyini, bunun üçün geniş fondlar və resurslar ayırdıqları və bu cür imkanlara malik ölkələr üçün bunun əhəmiyyətli bir xarici siyasi fəaliyyət sahəsi olduğu müşahidə edilmişdir.

Beləliklə də, müxtəlif ölkələrin müvafiq sahədəki siyasəti tədqiq edilərkən bir sıra özünəməxsus və oxşar xüsusiyyətlərin olduğu müşahidə edilmişdir. Bu xüsusiyyətlərdən birincisi hüquqi

meyardır, belə ki demək olar ki tədqiq edilən bütün ölkələr soydaş və yurddaş (ya da diaspor) icmaları ilə əlaqələrini, bu məqsədlə meydana gətirdikləri müəyyən milli və beynəlxalq hüquqi əsaslarla həyata keçirirlər. İkincisi - struktur meyarıdır, belə ki sözü gedən ölkələr bu milli və beynəlxalq hüquqi əsaslara söykənərək müxtəlif təşkilatlar təsis etmiş olub, bu təşkilatlar vasitəsilə siyasət, layihə və digər fəaliyyətləri reallaşdırırlar. Burada digər meyar isə ideologiya faktorudur, belə ki dövlətlər müvafiq sahədəki fəaliyyətlərinin legitimliyini qurduqları müəyyən ideya, mövzu və ya siyasi ritorikalarla təmin edirlər.





## İSTİFADƏ OLUNMUŞ İNTERNET RESURSLARI

ABŞ Beynəlxalq Təhsil İnstitutu, http://www.iie.org/
ABŞ Dövlət Departamentinin Təhsil və Mədəniyyət Məsələləri üzrə Bürosu, http://eca.state.gov/
ABŞ Beynəlxalq Elmi İşçilərin Mübadilə Şurası, http://www.cies.org/
ABŞ-ın USAID Yardım Agentliyi, https://www.usaid.gov
ABŞ Beynəlxalq İnformasiya Agentliyi, http://dosfan.lib.uic.edu/usia/
ABŞ Dövlət Departamenti, http://www.state.gov/
"Amerikanın Səsi" Radyosu, http://www.insidevoa.com/
Amerika-İsrail İctimai İşlər Komitəsi, http://www.aipac.org/
Amerika-İsrail Təhsil Fondu, http://www.aiefdn.org/
Amerika Ermənilərı Assambleyası, http://www.aaainc.org/
Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi, http://www.diaspora.gov.az/
Azərbaycan Respublikası Heydər Əliyev Fondu-"Azərbaycan" portalı, http://www.azerbaijan.az/
BBC World Service, www.bbc.co.uk
Beynəlxalq Frankofoniya Təşkilatı (OIF), http://www.francophonie.org/
BK Chevening Scholarship, http://chevening.org/
British Council, https://www.britishcouncil.org
"Campus France" Agentliyi, http://www.campusfrance.org/
"Cervantes" Institute, http://www.cervantes.es/
"Chinese Bridge" Summer Camp, http://hanban.org
Confucius Institute, http://hanban.edu.cn/
ÇXR Dövlət Şurasının Xaricdə Yaşayan Çinlilərlə İş üzrə İdarəsi, http://www.gov.cn/
Dante Alighiery Society, http://www.ladante.it/
Dünya Azərbaycanlıları Konqresi, http://www.dakaz.org/

Dünya Qazaxları Assosiasiyası, http://www.eurokazak.net, http://www.kazportal.kz/
Dünya Parlamentlərarası Hellinizm Assosiasiyası, http://www.whia.gr/
Dünya Rusiya Soydaşları Koordinasiya Şurası, http://www.vksrs.com
Dünya Yunanları Şurası, http://www.sae.gr
Ermənistan Diaspor Nazirliyi, http://www.mindiaspora.am/
Frankofoniya Dostluq Assosiasiyası (AFAL), http://www.afalassociation.com/
Gürcüstan Diaspor Bakanlığı, http://diaspora.gov.ge/
Gürcüstan Diaspor üzrə Fəxri Təmsilçisi, http://mfa.gov.ge
"Hamazkayin" Təhsil və Mədəniyyət Cəmiyyəti, http://www.hamazkayin.com/
"Hayastan" Ümumi Erməni Fondu, http://www.himnadram.org/
Hellenik Parlament Fondu, http://foundation.parliament.gr/
Hellenik Parlament Televiziyası, http://www.hellenicparliament.gr/
Hindistan Rifah Cəmiyyəti, http://publicwelfaresociety.com
Xaricdə Yaşayan Yunanlarla İş üzrə Baş Katiblik, http://www.ggae.gr/
Xaricdə Yaşayan Soydaşların Müdafiəsi və Dəstəklənməsi Fondu, http://pravfond.ru/
Xaricdə Yaşayan Amerikalılar Assosiasiyası, https://aaro.org/
Xarici İşlər və Birlik Ölkələri İdarəsi, https://www.-gov.uk/government/organisations/foreign-commonwealth-office
Xaricdə Yaşayan İtalyanlar və Miqrasiya Siyasəti İdarəsi, http://www.esteri.it/
Xaricdə Yaşayan Hindlilər Nazirliyi, http://moia.gov.in
Xaricdə Yaşayan Fransızlar Birliği, http://www.ufe.org/
İsgəndəriyyə Senghor Universiteti, http://www.usenghor-francophonie.org/
İspan Dili Diplomu-DELE, http://www.dele.org/





İspan Dili Akademiyaları Assosiasiyası, http://www.asale.org/
İspanya Carolina Fondu, http://www.fundacioncarolina.es/
Qazaxıstanın "Bolashak" Təqaüd Proqramı, http://bolashak.gov.kz/
"Patronati", http://www.inps.it/
Rai Italia - Beynəlxalq İtaliya Televiziyası, http://www.raitalia.it/
RFI - Beynəlxalq Fransa Radiosu, http://www.rfi.fr/
RF Xaricdə Yaşayan Soydaşlarla İş üzrə Hökumət Komissiyası, http://www.mid.ru
Rusiya Federasiyası Müstəqil Dövlətlər Birliyi, Soydaşlar və Beynəlxalq Yardımlaşma və Əməkdaşlıq Federal Agentliyi, http://www.rs.gov.ru/
"Rus Dünyası" Fondu, http://russkiymir.ru/
"Sochnut" Yəhudi Agentliyi, http://www.jewishagency.org/
"Tuğan Til", "Altın Beşik", "Atajurt" Jurnalları, http://qazaq-alemi.kz/
TV5 Monde, http://www.tv5monde.com/
"Ulpan" İbranicə Dil Mərkəzləri, http://ulpan.com/
United Israil Appeal (UIA), http://jewishfederations.org/
Wilton Park, https://www.wiltonpark.org.uk

**«Elm və Təhsil» nəşriyyatının direktoru:**
**professor Nadir MƏMMƏDLİ**

***Kitab dizayneri*: Zahid Məmmədov**
***Texniki redaktor*: Rövşanə Nizamiqızı**

Çapa imzalanmış **06.04.2016**
Şərti çap vərəqi 5,7. Sifariş № **68**
Kağız formatı **60x84 1/16.** Tiraj **500**

Kitab **«Elm və Təhsil»** nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib çap olunmuşdur.
**E-mail: nurlan1959@gmail.com**
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.